KÜRD xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

# DÎPLOMAT

www. Diplomata-kurdi.com

№ 04 (152), 6-12 fevral, Şûbat - sal 2012
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiyməti, Hêjaye 40 qəpik

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!
Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.
Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu



Səh. 2

## İlham Əliyev Münxendə Amerika Birləşmiş Ştatlarının dövlət katibi Hillari Klinton ilə görüşmüşdür



Səh. 3

## Müstəqil Kürdüstan dövləti Novruz bayramında elan olunacaq

## Azərbaycanın sovetləşməsi və Qarabağın qara günlə

Səh. 5

## Avropa Şurası Türkiyənin ədliyyə sistemini sərt tənqid edib

Səh. 3



Səh. 12

## Şanda BDP'ê serdana PDK Îranê kir



Səh. 12

## Ji bo gora Şêx Seîd serîlêdan



Səh. 16

## Турецкая прокуратура требует 5 лет тюрьмы для курдского политика



Səh. 15

## Нечирван Барзани продолжает готовить почву под "всеобъемлющее правительство"



Səh. 6

## TU ŞEREFA MİNÎ, WELAT



Səh. 10

## Hemik û Sînem



Səh. 11

## Конференция курдской диаспоры в Краснодаре



Səh. 11

## "SARI GƏLİN" KİMİNDİR, CƏNAB ƏRDOĞAN?

# İsveçrənin Davos şəhərində Azərbaycana həsr olunan interaktiv sessiyada İlham Əliyevin nitqi

- Çox sağ olun. Əvvəlcə bu cür görüşü təşkil etdiyiniz üçün sizə minnətdarlığımı bildirmək istəyirəm. Yenidən Davosa gəlməyimə şadam. Bu dəfə Azərbaycana həsr olunmuş xüsusi tədbirdə iştirak edirik. Bu gün Azərbaycanın Davosda daha da geniş şəkildə təqdim olunduğuna şadam. Burada bizim ənənəvi xalçalarımız və milli mətbəximiz sərgilənir. Əlbəttə ki, biz Bakıdan gəlmişik. Burada da özümüzü Bakıdakı kimi hiss etdik.

Ölkə uğurla inkişaf edir. Son bir neçə ildə iqtisadi inkişaf göstəriciləri, doğrudan da heyranedicidir: 2004-cü ildən etibarən bu, 300 faiz təşkil edib. Əlbəttə, biz anlayırıq ki, bu artımın ən böyük hissəsi neft və qaz sektorunun payına düşür. Bu da 20 ildir müstəqil yaşayan bir ölkə üçün təbii haldır.

Hər bir ölkə, xüsusən də keçid dövrünü yaşayan ölkə bütün resurslarından, təbii sərvətlərindən istifadə etməlidir ki, güclü iqtisadiyyat qursun. Bu, bizim məqsədimiz və siyasətimiz idi. Çoxmilyardlı iri sərmayələrin neft və qaz sektoruna cəlb edilməsi bizə iqtisadiyyatımızı şaxələndirməyə kömək edir. İndi biz qarşımızda yeni məqsəd qoymuşuq. Məqsəd artıq üç dəfə artmış ümumi daxili məhsulu yenidən ikiqat artırmaqdır. Lakin iqtisadiyyatı əsasən qeyri-enerji sektorunun inkişaf etdirilməsi hesabına ikiqat artırmaq istəyirik.

Neft və qazı hasil edən ölkə kimi biz həmişə ümumi daxili məhsula qeyri-enerji və enerji ümumi daxili məhsulu nöqteyi-nəzərindən baxırıq. Beləliklə, keçən il qeyri-neft sənayesi 11 faiz, qeyri-neft sektoru isə 9 faiz artıb. Bu gün qarşıda duran məqsədimiz ölkənin müasirləşdirilməsi, şaxələndirilməsi və növbəti 10-12 il ərzində sürətli inkişafıdır. Çünki ölkənin regionlarının inkişafı ilə bağlı ilk proqram 2004-cü ildə qəbul olunmuşdur. Bununla da, 2014-cü ildə biz 10 illik inkişafın yeni mərhələsinə başlayacağıq. Biz çox sayda xarici sərmayələrdən bəhrələnirik. Son 15 il ərzində qoyulan sərmayələrin ümumi həcmi təqribən 110 milyard dollar təşkil edib. Təkcə keçən il ölkəyə 20 milyard dollar məbləğində sərmayə yatırılıb ki, bunun da 7 milyardı xarici sərmayələrin payına düşür. Bu da onu göstərir ki, Azərbaycan hələ də xarici şirkətlər üçün cəlbedici ölkədir və bu, təkcə neft və qaz ilə bağlı deyildir.

İndi neft və qaz sahəsində sərmayələrin həcmi düşməkdədir, çünki bütün əsas layihələrin icrası başa çatıb. Sənaye, turizm və xidmət sahələrinə qoyulan sərmayələr artmaqdadır. Neft və qaz satışından əldə etdiyimiz maliyyə resurslarını iqtisadiyyatın real sektorlarına – informasiya texnologiyaları, təhsil sahələrinə yönəltmişik.

Bir neçə il əvvəl mən bəyan etdim ki, biz "qara qızıl"ı insan kapitalına çevirməliyik. Çünki inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, yalnız yüksək səviyyəli texnoloji tərəqqiyə, yüksək səviyyəli təhsilə nail olmaqla inkişaf etmiş ölkəyə çevrilmək mümkündür. Buna görə də, biz gənclərimizi dünyanın aparıcı universitetlərində təhsil almağa göndəririk və yaxşı nəticələr görürük.



Biz artıq özümüzü çox gözəl sərmayə mühiti olan ölkə kimi tanıtmışıq. Azərbaycana birbaşa xarici sərmayə axını hər hansı MDB ölkəsindən daha yüksəkdir. İqtisadiyyatın rəqabətədavamlılığı da artmaqdadır. Davos İqtisadi Forumunun reytinqinə əsasən, Azərbaycan iqtisadiyyatın rəqabətədavamlılığına görə 55-ci, MDB-də isə birinci yerdə qərarlaşır. Bu, bizim üçün çox mühüm nailiyyətdir. Belə ki, bu, bizim apardığımız şaxələndirmə siyasətinin artıq bəhrə verdiyini sübut edir.

Əlbəttə ki, enerji sektoru iqtisadiyyatımızda üstünlük təşkil etməkdə davam edəcəkdir. Bu, təbiidir, çünki neft istehsalı təqribən 50 milyon ton təşkil edir. Qaz istehsalı isə bu il 30 milyard kubmetrə yaxın olacaqdır. Yeni layihələr və sərmayələrlə bu rəqəm 50 milyarda da çata bilər. Beləliklə, qeyri-enerji iqtisadiyyatımızda nə qədər artım əldə etməyə çalışmağımıza baxmayaraq, enerji həmişə ümumi daxili məhsulda üstünlük təşkil edəcəkdir. Lakin bu, təbii haldır və yeni üfüqlər açır. Çünki indi

Azərbaycanın iqtisadi və enerji siyasəti, həmçinin ölkənin siyasi çəkisinə transformasiya olunur.

Avropa İttifaqı bizi Azərbaycan qazını Avropaya çatdıracaq "Cənub" qaz dəhlizinə töhfə verən və bunu mümkün edən ölkə kimi qiymətləndirir. Ötən bir neçə ay ərzində biz çox mühüm nailiyyətlər əldə etmişik, tranzitə dair sazişlər və böyük həcmdə Azərbaycan qazını Avropa ölkələrinə çatdıracaq qaz boru kəmərinin tikintisinə dair sazişlər imzalamışıq. Bu, öz növbəsində bizə hələ 1994-cü ildə başladığımız ilk enerji layihələrindən daha çox fayda gətirəcəkdir. Çünki o zaman bu qədər genişmiqyaslı fəaliyyəti yerinə yetirə biləcək şirkətlər yox idi. İndi isə bizim iri tikinti şirkətləri - xidmət, enerji, qeyri-enerji sahələrində fəaliyyət göstərən şirkətlərimiz vardır ki, onlar da qaz yataqlarına qoyulan bu 20 milyard dollarlıq sərmayənin bir hissəsi olacaqdır. Belə ki, bu sərvət çoxşaxələnmiş bir üsulla yayılacaqdır.

Ümumiyyətlə, iqtisadiyyatda hazırda rol oynayan nailiyyətlərimizdən biri də şəffaflıqdır. Azərbaycan Beynəlxalq Şəffaflıq Təşəbbüsünə səkkiz il əvvəl qoşulub və indi həmin təşəbbüsün tam hüquqlu üzvüdür. Biz enerji sektorumuzda tam şəffaflığa nail olmuşuq. İndi biz sistemi dəyişirik. Bu yanaşmanı bütövlükdə maliyyə sistemində tətbiq edirik. Beləliklə, gələcək üçün perspektivlər müsbətdir, iqtisadiyyat sabit, davamlı, özünü təmin edəndir, enerji sektorundan güclü dəstək alır və ölkənin strateji gələcəyinin tam aydın mənzərəsini yaradır. Ən ali məqsədimiz Azərbaycanı inkişaf etmiş ölkəyə çevirməkdir. Bizim bütün qurumlarımız və nazirliklərimiz bunun üzərində çalışırlar. Bu gün rabitə və texnologiya, maliyyə, ekologiya və təbii sərvətlər nazirləri də buradadırlar. Onlar təmsil etdikləri sektorlar haqqında daha geniş məlumat verəcəklər.



**İlham Əliyev Münxendə Amerika Birləşmiş Ştatlarının dövlət katibi Hillari Klinton ilə görüşmüşdür**

Prezident İlham Əliyev Münxendə Amerika Birləşmiş Ştatlarının dövlət katibi Hillari Klinton ilə görüşmüşdür. Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə inkişafından məmnunluq ifadə olunan görüşdə əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik bildirildi. Azərbaycanın antiterror koalisiyasının tərkibində Əfqanıstandakı sülhyaratma əməliyyatlarında iştirakı yüksək qiymətləndirildi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı geniş fikir mübadiləsi aparıldı.

# Müstəqil Kürdüstan dövləti Novruz bayramında elan olunacaq

## *Müstəqil Kürd dövlətinin elan ediləcəyi tarix bəlli olub*



"Mərkəz"in Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, bu barədə "Avestakurd" internet saytı İraqın "Əl Nexil" informasiya agentliyinə istinadən xəbər yayıb.

Məlumatda qeyd edilir ki, İraqın şimalındakı kürdlər martın 21-də Novruz bayramı günündə müstəqil Kürd dövlətini elan edəcəklər. İraq kürdlərinin lideri Məsud Bərzani İraq XİN-i Hoşyar Zerabi ilə görüş zamanı bildirib ki, müstəqil Kürdistanın martın 21-də yaradılması üçün İraq prezidenti Cəlal Talabanini də razı salıb.

Xəbərdə o da qeyd edilib ki, Avropa dövlətləri müstəqil Kürd dövlətinin yaradılmasının tərəfdarıdırlar.

"Fransa və İngiltərə bu mövzuda dəqiq qərara gəlməyib. ABŞ regionun müstəqilliyə hazır olmadığını düşünür. Türkiyənin razı edilməsi üçün isə görüşlər keçirilməlidir",- "Əl Nexil" bildirib.

***Aynur Baxşalıyeva***

# Avropa Şurası Türkiyənin ədliyyə sistemini sərt tənqid edib



Onillik hakimiyyətinin ilkin çağlarında hakim Ədalət və İnkişaf Partiyası (AKP) işgəncələrə son qoyduğuna görə alqışlanırdı. Amma müşahidəçilər ölkədə avtoritar tendensiyanın güclənməsi ilə xoş məramın sürətlə buxarlanmaqda olduğunu deyirlər.

Avropa Şurası bu ay açıqladığı hesabatda Türkiyənin ədliyyə sistemini kəskin tənqid edib. Bu tənqid ölkənin iki aparıcı müxalifət partiyasının hökuməti müxalifəti hüquqi yollarla susdurmağa cəhddə ittiham etməsindən sonra açıqlanıb.

Detallı hesabatda Avropa Şurasının İnsan Haqları üzrə komissarı Tomas Hammerberq Türkiyədə ədliyyə sisteminin fundamental insan haqlarına təhlükə törətdiyini bildirib:

"Bu ölkədə ədliyyənin fəaliyyəti - konkret olaraq, onun insan haqlarına təsiri ilə bağlı real problemlər var. Heç də sistemə gətirilən bütün məsələlərdə ədalət bərqərar olmur."

Hesabatın işıqlandırdığı başlıca narahatlıq siyasi partiya üzvlərinin artan şəkildə həbsləri üzərində cəmləşib. Kürdüstan İcmalar İttifaqının (KİI) fəaliyyəti ilə bağlı təhqiqat hesabatda xüsusi yer alır. Türkiyə rəsmiləri inanırlar ki, KİI üsyançı PKK qrupunun siyasi qanadıdır.

Yerli insan haqları qruplarının məlumatına görə 2009-cu ildən bəri 4000 adam saxlanılıb. Onların çoxu kürdpərəst Sülh və Demokratiya Partiyasının (BDP) üzvləridir. BDP-nin parlamentdəki nümayəndəsi Ertuqral Kürkçü bu həbslərin terrorizmə qarşı mübarizə ilə heç bir əlaqəsi olmadığını deyir.

Hammerberg bu narahatlıqları ifadə edərək saxlanmalar üçün hüquqi əsas olmadığını deyir. Saxlananların çoxu illərlə məhkəməsiz həbsdə qalıb. Avropa Şurası məhkəmədən qabaq saxlanmaları ciddi narahatlıq mənbəyi kimi qiymətləndirib.

Hammerbergin dediyinə görə onun ədliyyə işçiləri ilə söhbətlərindən belə məlum olur ki, hökumət məhkəmədən qabaq saxlamalardan cəza mexanizmi kimi istifadə edir. "Mən Diyarbəkirdən bir prokurorla söhbətimdə ona izah edirdim ki, yekun məhkəmədən öncə kimisə saxlamaq üçün səbəb olmalıdır. O, cavab verdi ki, bu növ həbslər onlara dərs olar. Niyə ədliyyə sistemi günahı sübut edilməyən adamlara dərs verməkistəyir? Elə adamlar var ki, 10 il saxlanılıblar. Bu, rüsvayçılıqdır. Heç kəs sübut olunmadan bu qədər uzun müddətə saxlanılmamlıdır.

Xalq Cümhuriyyət Partiyasının (CHP) lideri Kemal Kılıcdaroğlu da bu ayın əvvəlində məhkəmədən qabaq saxlanma praktikasını pisləyib. O, Türkiyənin "açıq məhbəsə" çevrildiyini deyib. Onun parlamentdəki iki müşaviri artıq 3 ildir ki, hökuməti devirmək ittihamı ilə həbsdə yatırlar.

Avropa İnsan Haqları Məhkəməsi dəfələrlə Türkiyəyə qarşı bu yönümdə qərarlar çıxarıb. Artan tənqidlərin fonunda Ədliyyə Naziri Sadullah Ergin islahatlar paketi açıqlayıb.

O, deyib ki, indən belə həbs orderləri, zaminə buraxılmamaq qərarı aydın şəkildə yazılmalıdır. Cənab Erginin sözlərinə görə məhkəmələr müttəhimin cinayət törədəcəyinə dair şübhələrini ciddi şəkildə əsaslandırmalıdırlar.

Ana müxalifətin təmsilçisi və Avropa İnsan Haqları Məhkəməsində hakim qismində çalışmış Riza Turmen islahatların kosmetik xarakter daşıdığını bildirib. O, bu islahatların anti-terror qanununa dəlalət etməyəcəyini bildirib; halbuki, bu qanunlar əsasında 100-ə yaxın jurnalist həbs olunub.

Turmenin sözlərinə görə Türkiyənin üzləşdiyi təhlükə daha fundamentaldır:

"Türkiyədə problem odur ki, bir partiyanın əlində nəhəng hakimiyyət cəmləşib. Hökumət ədliyyəyə nəzarət edir. Hökumət bütün müstəqil təsisatlara nəzarət edir. Türkiyədə heç vaxt hakimiyyət bir əldə bu dərəcədə konsentrasiya olunmayıb. Hakimiyyətin bu cür bir əldə cəmləşməsi istənilən demokratiyaya təhlükədir."

Onillik hakimiyyətinin ilkin çağlarında hakim Ədalət və İnkişaf Partiyası (AKP) işgəncələrə son qoyduğuna görə alqışlanırdı. Amma müşahidəçilər ölkədə avtoritar tendensiyanın güclənməsi ilə xoş məramın sürətlə buxarlanmaqda olduğunu deyirlər.

***voanews.com***

## *Sətri Xəbərlər*

*Kürdüstanın rəsmi xəbər agentliyi "Rudav"-ın verdiyi məlumata görə, İraq Federativ Respublikasinin Kürdüstan bölgəsinin Prezidenti Məsud Barzani cənabları Novruz bayrami günü, yəni martın 21-də Kürdüstanın müstəqilliyini elan edəcək.

*İraqda ümumxalq referendumun keçirilməsi gözlənilir.

*Kürdüstanın Həvler şəhərində Suriya Kürdlərinin qurultayı keçirilmişdir.

*Kürdüstan hökuməti MDB ölkələrinə yeni rəsmi nümayəndə təyin edib. Diplomatın adı Aso Cəngi Burxandı. Qeyd edək ki, keçmiş nümayəndə Xoşavi Babakr öz vəzifəsini 10 ildən artıqdır ki, icra edirdi.

*Ərəb mətbuatının açıqlamalarına görə, Suriyadaki qiyamçıları Səudiyyə Ərəbistanı və Qətər silahlandırır.

*ABŞ Cənubi Kürdüstanla Türkiyə sərhəddində hərbi baza tikməyi planlaşdırır.

*Mosulda 13 nəfər "Əl-Qaidə" terrorçusu həbs olunub. Onlar zorla yerli ərəblərdən pul alaraq silahlanırlar. Sonra isə kürdlərə qarşı terror hücumları həyata keçirirlər.

*Həvler şəhərində "Öcalana – azadlıq" adlı miting keçirilmişdir.

*İraq Parlamentini boykot edən "İraqiya" bloku yenidən Parlamendə qayıdıb.

*Məsud Barzani: Artıq heç kəs Kürd xalqını inkar edə bilməz!

*Batman Universitetində "Kürd dili" şöbəsi açılmışdır.

*ABŞ-ın "EXXON" neft şirkəti ardından Fransanın "Total" şirkətidə Kürdüstanla bir-neçə müqavilə imzalayıb.

*Fevralın 1-də Həvlerdə Kürdüstan uğrunda şəhid olanlar yad edildi. Bir-sıra tədbirlər keçirilərək qeyd olundu ki, Kürdüstanın fədailəri heç vaxt unudulmayıb və unudulmayacaq.

*ABŞ hökuməti Fars körfəzində öz hərbi donanmasını gücləndirir. Bəzi siyasətçilər belə hesab edirlər ki, artıq 3-4 aydan sonra ABŞ İsrail ilə birgə İrana hücüm edəcək.

*Fransa hökuməti 7-ə yaxın kürd ziyalısını həbs edib. Onlar "terror təşkilatına dəsdək verməк"-də günahlandırırlar. Saxlanılanların sözlərinə görə isə, onlar Fransada rəsmi fəaliyyət göstərən Kürd Mədəniyyət Mərkəzinin üzvləridirlər. Türkiyənin təzyigi nəticəsində Fransa istənilən kürdə qarşı ədalətsizlik edir.

*Van şəhərinin bələdiyyə başqanı prokuraturaya müraciət edərək bildirmişdir ki, o, KCK təşkilatının üzvüdür və bununla qürür duyur. Qeyd edək ki, Türkiyədə kürdlər "Mən KCK-çıyam" adlı etiraz aksiyası keçirirlər. Hər bir kürd prokurorluğa müraciət edərək bildirir ki, o KCK təşkilatının üzvüdür.

*Ərzurum şəhərindən seçilən BDP millət vəkili Yüksel Avsar 5 il həbs cəzasına məhkum ola bilər. O, "PKK-nı təbliğ etmək"də günahlandırılır.

*Birləşmiş Ərəb Əmirliyinin Dubay şəhərində "Kürdüstan Biznes Forumu" keçiriləcək. Tədbirdə dünya şirkətlərinə Kürdüstan və onun iqtisadi potensialı haqqında məlumat veriləcək. Həmçinin Kürdüstanda istehsal olunun mallarında sərgisi keçiriləcək.

*Vladimir Jirinovski: Türkiyə Süriyaya və İraqın Şimalına (Kürdüstan muxtariyyatına) hərbi müdaxilə etmək niyyətindədir. Biz bunun qarşısını almalıyıq.

*BDP-nin başçısı Səlahəddin Dəmirtaş Türkiyənin Hərbi qüvvələr başçısı Nejdəd Özəli məhkəməyə verib. Deputatın sözlərinə görə, N.Özəl "məhkəmələrə təzyiq göstərir" və "qeyri-qanuni olaraq siyasi bəyanatlar verir".

*Van şəhərində 70 mindən artıq kürd palatka şəhərciklərində öz həyatlarını davam edirlər. Onlarla insan, xüsusəndə uşaqlar havanın sərt keçməsindən donaraq ölüblər. Qeyd edək ki, baş nazir Ərdoğan hər bir ailəyə ev verməyi söz verib. Evlər isə avqust ayında paylanacaq.

# RÊBER

## Rewayî serokê kurdên Sovêtêye berê ,damezirkarê komala ``Yekbûn``-ê Mehmedê Silêmanê Baba dikim

Ey gelê bindest û gelê kevnar,
Îro ji me çû mêrxase navdar.

Mêrxasê weha sed sala carek,
Têne dunyayê divine rewnek.

Ew dunya mera bû serok, rêber,
Ji xewê rakir gelê penaber.

Rêya me tarî ewî kir ronî,
Jimera bê şik wî yekbûn anî.

Nav meda reşand walatparêzî,
Bo welatê sor kir hewar, gazî.

Ew jî çû rêça Berzanî,Qazî.
Hertim mera xwest wî serfirazî.

Xwe da pêşîya lawê kurdada,
Bo azaya gel wî gellek ked da.

Cara yekemîn çawa qehreman,
Mafê gelê xwe wî anî ziman.

Kurdê Sovyêtê ewî kire yek,
Ji mera xwest wî pêşerojek.



Tim gelê xwera dikir îtaet,
Hewl da çêke mera seltenet.

Xastekên wî bûn daxwaz û armanc,
Lê pêşerojê em bikin qazanc.

Resena mera rêber rê vekir,
Beqî hewla wî kurda xwe naskir.

Hebûna me bi navê wî jî,
Çiqas gel heye ewê jî bijî.

Mehmedê Silo, Siloyê Bava,
Navekî eyan nava kurdada.

Karê wî hertim têne pêş çava,
Ça rêber, serok gelra bû rewa.

Cara yekemîn dîroka meda,
Wî milet komkir li nava qada.

Berê xwe dida wî hertim patşa,
Pêş milet diçû tim li meşada.

Dijî rêjîmê wî milet rakir,
Yekbûna me weha ava kir.

Li dîrokê xist bi bawerî mor,
Bo damezrîne Kurdistana Sor.

Kurdara azadî wî dikir daxwaz,
Digot: şerme, kurd najîn serfînaz.

Hela cahaltî nozde,bîst salî,
Wî soz dabû Qazî, Berzanî.

Miletê xwera bike xizmetê,
Ku dera bikin mera rûmetê.

Dîrok nivîsî dîroka tarî,
Faktên veşartî a kurdên arî.

Dîroka kurda wî kire ronî,
Rêya azayê wî mera danî.

Wî xizmet kir hetanî dawî,
Xerîbistanê lê serî danî.

Mixabin nedît Kurdistan Azad,
Lê gellek kar kir em bijîn dilşad.

Emir feda kir bo nîştimanê,
Ji bona kurdên Sovêtistanê.
Nêtên wî mera dîlek û armanc,
Dîroka mera nave wî bû tac.

Ew bû rêberê gelê xwe birêz,
Ji kirinên wî em distînin hêz.

Gernasê weha pêkrewanin,
Dîroka gelda tim zindîvanin.

Serokê xwera bi dil me soz da,
Emê bimeşin di rêça wîda…
Mirin heye jîyane,
Jîyan heye mirine.
Mirina rêberê me,
Jib o dîroka me,
Ji bo cîhana me,
Ji bo pêşeroja me,
Jîyane,
Jîyan,
Jîyan…



**Bêwar Barî**
**Teyfûr**
**Maykop**
**Rûsîya.**
*4.1.2012*

# Elimizin sevimlisi

Son zamanlar qan ağlayan yazılar yazır qələmim. Böyük bir şövqlə eli, obanı, vətəni tərənnüm etdiyim halda, indi vətəndən uzaq köçkün həyatı sürən el-obamızın acı həyat həqiqətlərindən; - igidlərimizin, cavanlarımızın, ağbirçək, ağsaqqallarımızın acı taleyindən, vaxtsız ölümlərindən, qərib-qürbət qəbirstanlıqlardakı qəbirlərə tapşırmaqlarımızdan yazıram.

Uzun sürən ağır xəstəlikdən sonra, elimizin sevimlisi, elini-obasını sevən, zəhmətkeşliyi ilə seçilən, söz, gülüş ustası Səmədov Əhliman Xasay oğlu 01.01.2012-ci il tarixində gözlərini əbədi olaraq yumdu.

O, 01.07.1949-cu ildə Laçın rayonunun Kamallı kəndində kürd ailəsində anadan olmuşdur. Valideynlərinin hər ikisi də kürd idi. Kürd dilində çox gözəl danışırdı.

Böyük vətən müharibəsinin yaraları hələ tam sağalmamışdı. Ucaqar dağ kəndlərində məktəblər çatışmırdı. Elmə, təhsilə güclü maraq göstərən gənc Əhliman təhsilini qonşu kəndlərdə alır. Rayon mərkəzində elektrik, kino mexanik kursunu bitirir.

1960-cı illərin ortalarında kəndlərin elektrikləşdirilməsinə başlanıldı. Kəndimizin elektrikləşdirilməsində yaxından iştirak edən bu cavan oğlanın bacarığını görən rayon elektrik şöbəsinin rəhbərliyi, yaxın ətraf kəndlərin elektrikləşdirilməsini də ona tapşırır. Az bir zaman içərisində bu işin öhdəsindən bacarıqla gəlir və 1992-ci ilin məcburi köçkünlük dövrünə qədər yorulmaq bilmədən xalqa xidmət edir.

1960-ci illərin sonuna yaxın ucqar dağ kəndlərində radio-televiziya verilişlərinin yayımlanması başlanıldı. Bacarıqlı və istedadlı Əhliman, özünün fitri istedadı və çox iti sürətli qavrama qabiliyyəti ilə radio texnikanın bütün sirlərinə yiyələnir. Bunun nəticəsində kəndimizdə, eləcə də bütün ətraf kəndlərdə radio və



televiziya verilişlərinin yayımlanması üçün bütün ötürücü və qəbuledici qurğuların quraşdırılmasını və təmirini təmin etmişdir.

Tufana, borana baxmayaraq camaatın xidmətində daim təmənnasız dayanmışdır. Kimliyindən asılı olmayaraq hamıya əl tutmuşdur. Dağ yerində elektrik enerjisinin tez-tez kəsildiyinə görə özü küləklə işləyən enerji qurğusu düzəltmişdir.

Mahir tar ifa etmə bacarığına malik idi. Bütün muğamlarımızı dəqiq, qüsursuz və çox məlahətlə ifa edərdi. O zaman bədii rəhbərlik etdiyim həvəskar teatr yaradıcılıq qrupunun bütün tədbirlərində yaxından iştirak edər, musiqi hisslərini coşqun bir ilhamla müşaiyyət edərdi. Hələ çox erkən yaşlarında "Leyli və Məcnun" xalçası toxumuşdu. Xalçadakı bədii təsvir, ilmələrin və naxışların yerli-yerində işlənməsi o qədər gözəl idi ki, görənləri heyrətə salırdı.

Rus dilini tamamilə bilirdi.

Kənddə kino-mexanik işləmişdir. Özünün sarıdığı qaynaq aparatı ilə hamıya əl tutmuş, heç kəsdən köməyini əsirgəməmiş, hamının yardımçısı olmuşdur.

Evləri ümid qapısı idi, heç kimi əli boş geri qaytarmazdı.

1992-ci ildə məcburi köçkün düşdükdən sonra Bakının Elektrotok qəsəbəsində məskunlaşmış bütün kənd camaatının evlərini elektrik xətti ilə tam və təmənnasız təmin etmişdir.

Hansı evə gedərdi, kiminlə yoldaşlıq edərdisə, oradan həmişə gülüş əksik olmazdı.

Hər bir şəxsə, hər bir hadisəyə xüsusi yanaşma tərzi var idi. Hər sözü mənalı, gözəl, dürüst və yerində işlədərdi. Məhz buna görə də el içində böyük söz ustası kimi də tanınmışdı. Lətifələri dillər əzbəri idi;

- Qonşu kənddə işıq transformotorunda qəza baş verir. Qoruyucu avtomat qurğusu tamamilə sıradan çıxır. Rayon elektrik şəbəkəsinə müraciət etsə də, rayonda avtomat qurğusunun olmaması üzündən transformotoru təmir edə bilmir. Bir neçə gün işıqsız qalan kənd camaatı rayon partiya komitəsinə şikayət edir. Həmin kəndə gələn katib üzünü Əlhimana tutub:

- Vicdanın yoxdur, camaatı işıqsız qoymusan?

- Vicdan var, avtomat yoxdur, - deyə Əhliman cavab verir.

Katib avtomat sözünün fərqinə varmadan;

- Avtomatı neynirsən a kişi, camaatı qırasan? - deyən zaman camaat gülməkdən oğunub gedir.

Qoyun otarmağı heç xoşlamazdı.

Dörd qız övladından sonra bir oğlan uşağı anadan olan zaman ölür. Qonşusu Günəş xala onlara gəlib dilağız etmək istəyir:

- Əlo, belə va çi zülmü, lə səre tə hatt? (Əhliman bu nə zülm idi başına gəldi?).

Əhliman tez cavab verir:

- Xaltiye Gülə, jə vıyanda puçtur zülm həyə. (Günəş xala, bundan da betər zülm var).

- Lə, əv çiyə Əlo? (Bəs o nə zülmdür bundan betər?)

- Süvə novata mın bəzə, (Sabah mənim qoyun novatımdı), - deyə, qısa və lakonik cavab verir. Hamı gülməkdən oğunub gedir.

Vətən həsrəti, vətən dağı onu da rahat buraxmırdı. Özünün sevimli VEF radiosunu götürüb bir kənara çəkilər, xəbərlər proqramına qulaq asar, bir xoş xəbər eşidəcəyinə inanardı. Nə heyf ki, amansız ölüm onu sıralarımızdan çox tez apardı.

"Adam var evdən gedər, adam var eldən", - demiş atalarımız. Bəli, sözün əsl mənasında, Əhliman elimizdən getdi.

Bir uşaq saflığı, sadəliyi var idi onda. O qədər saf, o qədər təmiz qəlbli bir insan idi ki, onu hamı sevərdi. Kin, yalan nə olduğunu bilməzdi. Uşaqla uşaq, böyüklə böyük idi. O, öz sadəliyi, səmimiyyəti ilə daima qəlbimizdə yaşayacaq. Gözəl, qayğıkeş ailə sahibi idi.

Dörd qızı, bir oğlu var. Allah ailəsinə, övladlarına və qohumlarına səbr versin.

*Yandın çıraq kimi elin yolunda,*
*Yarıb zülmətləri nura boyadın.*
*Hər evdə, ocaqda nəğməyə dönüb,*
*İnsanlıq adına bir meyar oldun.*

*Nə tufan tanıdın, nə də ki şaxta,*
*Yetişdin haraya, çağrılan vaxtda.*
*Gəzdi şan-şöhrətin dildə-dodqda,*
*Uşaqdan böyüyə əhliyar oldun.*

*Hər sözün-söhbətin bir el məsəli,*
*Gülüşün ləzzətli, sözün məzəli.*
*Mən nə söyləyim ki, tapaq təsəlli?*
*Elin sevgisiylə bəxtiyar oldu.*

*Adicə,*
*Sadəcə,*
*Əhliman oldun!*
*Əhliman oldun!*

Allah rəhmət eləsin. AMİN!

***Vidadi Qurbanov***



# Azərbaycanın sovetləşməsi və Qarabağın qara günləri

**Cəmil HƏSƏNLİ**
*Tarix elmləri doktoru, professor*

***“Media forum” saytı tarixçi alim Cəmil Həsənlinin “Azərbaycanın sovetləşməsi və Qarabağın qara günləri (1920-1923)” araşdırmasını oxuculara təqdim edir.***

**Əvvəli ötən saylarımızda**

***

Ümumiyyətlə, Nərimanovun bəyanatında Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi ideyası niyə səsləndirildi? Sənədlərin araşdırılmasından aydın olur ki, əslində, bu ideya Moskvadan, RKP MK Siyasi Bürosundan gəlirdi. Hələ 1920-ci ilin noyabrında Stalinin Qafqaza məşhur səfəri günlərində, ayın 4-də Azərbaycan K(b)P MK-nın RKP MK Qafqaz Bürosu ilə birgə keçirdiyi iclasda Ermənistanda vəziyyət haqqında Boris Leqranın məruzəsi dinlənilmiş və müvafiq qərar qəbul edilmişdi. Qərarın Rusiya ilə Ermənistan arasında müzakirə edilən müqavilə ilə bağlı bəndində qeyd edilirdi ki, Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi haqqında müqaviləyə Moskva tərəfindən təklif edilən bənd yalnız əlacsız qaldıqda həyata keçirilə bilər. Qərara görə, Naxçıvan və Zəngəzur haqqında Siyasi Büronun fikrinin əsaslandırmasını tərtib etmək Nərimanova tapşırılırdı.

Göründüyü kimi, Qarabağ məsələsi bu müzakirələrdə ümumiyyətlə mövcud deyildi və sənədlərdə də yer almamışdı. Lakin 1920-ci ilin noyabr ayının 20-də İrəvana gələn Sovet Rusiyasının diplomatik nümayəndəliyinin ilk addımlarından biri Gümrüdə aparılan Türkiyə-Ermənistan danışıqlarını izləmək, habelə Ermənistanın Azərbaycana və Gürcüstana olan ərazi iddialarını araşdırmaq olmuşdu. RSFSR xarici işlər komissarı Çiçerinə göndərilən məlumatda deyilirdi ki, “indi erməni xalqının mövcudluğu hərbi qüvvədən deyil, daha çox diplomatiyadan asılıdır. Partiya romantizmindən imtina edib sərt realizmlə silahlanmaq lazımdır”.

Ermənilərin Qarabağa iddialarına gəldikdə isə diplomatik nümayəndəlik Çiçerini məlumatlandırırdı ki, hələ “Batumda (1918-ci ilin may-iyun aylarında Batum sülh konfransı nəzərdə tutulur - C.H.) türklərlə danışıqlar apararkən Ovanes Kaçaznuni və Aleksandr Xatisyan Qarabağın Azərbaycana verilməsi ilə razılaşmışdılar”. Qafqazdakı sovet diplomatiyasının başlıca vəzifəsi ermənilərin hələ 1918-ci ildə imtina etdikləri və artıq həll edilmiş sayılan bu məsələni yenidən gündəliyə gətirmək və ermənilərin xeyrinə həll etmək idi.

***

RK(b)P MK-nın Qafqaz Bürosu 1921-ci ilin iyun ayının 3-də Orconikidze, Maxaradze, Nərimanov, Myasnikov, Orexalaşvili, Nazaretyan, Fiqatner və Azərbaycan KP MK-nın katibi Kaminski, habelə Gürcüstan KP MK-nın üzvü Eliavanın iştirakı ilə keçirilən plenumunun axşam iclasının gündəliyində üç məsələ var idi - “Azərbaycan məsələsi”, “Zəngəzur məsələsi”, “Köçərilər haqqında” məsələ. Birinci və üçüncü məsələlər haqqında qəbul edilmiş qərarlar iclasın 6 saylı protokolunda əks olunsa da, ikinci məsələ ilə bağlı protokolda belə bir qeyd qoyulub: “Bax: protokola əlavəyə”.

Əslində, məsələnin elə müəmmalı tərəfi də burada idi. Birincisi, Zəngəzur məsələsi haqqında Qafqaz Bürosunun 7 bənddən ibarət qərarı “tamamilə məxfi” qrifi ilə qəbul edilmişdi. Halbuki iclasın 6 saylı protokolunun üzərində belə bir məxfi qrif yoxdur. İkincisi, Qafqaz Bürosunun “tamamilə məxfi” qrifi altında qəbul etdiyi qərar məhz “Zəngəzur məsələsi” üzrə qəbul edilib.




Lakin 7 bənddən ibarət gizli qərarın 6 bəndi bilavasitə Zəngəzura aid olsa da, onun 5-ci bəndi Zəngəzura tamamilə dəxli olmayan “Dağlıq Qarabağ” haqqında idi.

Həmin 5-ci bəndində qeyd edilirdi ki, “Ermənistan hökumətinin bəyanatında Dağlıq Qarabağın Ermənistana məxsus olduğu göstərilsin”. Yəni “tamamilə məxfi” formada Ermənistana tapşırılırdı ki, hökumət bəyanatı ilə çıxış edib Dağlıq Qarabağın Ermənistana məxsus olduğunu göstərsin. Halbuki Qafqaz Bürosunun belə bir qərar qəbul etməyə ümumiyyətlə səlahiyyəti çatmırdı.

Digər tərəfdən, 1921-ci ilin may ayının 2-də keçirilən plenumda Qafqaz Bürosunun təşkili haqqında qəbul olunan qərarla plenumlar arasındakı dövrdə bütün işi aparmaq üçün üç nəfərdən ibarət Rəyasət Heyəti yaradılmışdı ki, ora da Orconikidze, Maxaradze və Fiqatner daxil edilmişdi. Göründüyü kimi, Qafqaz Bürosu məhdud sayda adamların nəzarətində idi, Azərbaycan Rəyasət Heyətində təmsil edilmirdi.

Qafqaz Bürosunun 3 iyun qərarından dərhal sonra, iyun ayının 12-də Ermənistan Xalq Komissarları Soveti Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsi haqqında dekret qəbul etdi. Orada deyilirdi: “Azərbaycan Sovet Sosialist Respublikası İnqilab Komitəsinin bəyannaməsi, Ermənistan və Azərbaycan sosialist respublikaları arasındakı razılıq əsasında bundan sonra Dağlıq Qarabağ Ermənistan Sovet Sosialist Respublikasının ayrılmaz hissəsi elan edilir”.

A.Myasnikov (A.Martuni) və M.Karabekyan tərəfindən iyun ayının 12-də imzalanmış bu dekret iyunun 15-də Ermənistan KP MK-da müzakirə edildikdən sonra onun elan edilməsinə qərar verildi. Orada deyilirdi ki, Dağlıq Qarabağın Sovet Ermənistanına birləşdirilməsi haqqında bəyannamə mətbuatda dərc edilsin. Həmin iclasda 5-ci məsələ kimi “Qarabağa nümayəndə göndərilməsi haqqında” məsələ müzakirə edilib müfafiq qərar qəbul edilmişdi. Qərarda göstərilirdi: “Yoldaş Mravyan və onunla birlikdə Pirumov, Hakop İoanisyan, Ter-Simonyan və digər yoldaşlardan ibarət qrup Qarabağa göndərilsin”.

Bu qərara uyğun olaraq iyunun 19-da, yəni qəbul olunduğundan bir həftə sonra Ermənistan İnqilab Komitəsinin Dağlıq Qarabağın “Ermənistan Sovet Sosialist Respublikasının bir hissəsi” kimi elan etdiyi dekret mətbuatda dərc edildi və Askanaz Mravyan Dağlıq Qarabağa fövqəladə müvəkkil kimi təsdiqləndi.

Ermənistan İnqilab Komitəsinin dekreti mətbuatda elan olunduqdan bir gün sonra ona əməli xarakter vermək məqsədi ilə, habelə Qarabağın ələ keçirilməsində Zəngəzurda möhkəmlənməyin əhəmiyyətini nəzərə alaraq Ermənistan KP MK iyunun 20-də keçirilən iclasında Zəngəzurda gizli işi gücləndirmək üçün ora yeni işçilərin göndərilməsi haqqında qərar qəbul etdi. Bu qərara uyğun olaraq iyunun 28-də Ermənistan Təsərrüfat Şurasının sədri L.Lukaşin və ədliyə komissarı A.Karinyan Zəngəzura ezam edildi. Ermənistan KP MK-nın iyun ayının 28-də keçirilən iclasının qərarı ilə 1921-ci ilin may ayında yaradılan Ermənistan hökumətində daxili işlər naziri vəzifəsini tutan Makinsyan Zəngəzura fövqəladə müvəkkil təyin edildi. Elə həmin hökumətdə poçt-teleqraf komissarı vəzifəsini tutmuş Ter-Simonyan isə Zəngəzur İnqilab Komitəsinin sədri təyin edildi və ona tapşırıldı ki, Gorusu tutmaq üçün təcili olaraq yola düşsün.

AK(b)P MK-ya və İsay Dovlatova müraciət edildi ki, Askanaz Mravyanın sərəncamına işçilər göndərsinlər. Lakin Zəngəzuru müsəlman əhalinin həyəcanı bürüdüyü üçün Ermənistanın hər iki komissarı avqust ayının ilk günlərində İrəvana dönməli oldular. Avqust ayının 7-də keçirilən Ermənistan KP MK-nın iclasında Makinsyan və Ter-Simonyanın onlara tapşırılmış vəzifələri qoyub MK-nın razılığı olmadan İrəvana qaçmaları yolverilməz hesab edildi və Ter-Simonyan MK-nın qərarı ilə 2 aylıq Ermənistan KP MK-nın və XKS-nin nümayəndəsi olaraq Zəngəzura müvəkkil kimi ezam edildi.

Ermənistan XKS-nin 12 iyun tarixli dekretinin mətni ilə tanışlıq maraqlı məqamları meydana çıxarır. Sənədin araşdırılması zamanı aydın oldu ki, bu dekretin mətnində yazılanların əksinə olaraq nə Azərbaycan İnqilab Komitəsinin istinad edilən bəyannaməsində Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsi var idi, nə də iki respublika arasında bu istiqamətdə hər hansı razılıq əldə olunmuşdu. Bu dekretə bilavasitə Qafqaz Bürosunun Orconikidzenin sədrliyi və Fiqatnerin katibliyi ilə keçirilən 3 iyun tarixli iclasında qəbul edilən “Zəngəzur məsələsi” haqqında “tamamilə məxfi” qərarı rəvac vermişdi və nədənsə Qafqaz Bürosunun 3 iyun tarixli qərarı Ermənistan XKS-nin 12 iyun tarixli dekretində xatırladılmırdı. Ermənistan XKS-nin 12 iyun dekretində Qafqaz Bürosunun 3 iyun qərarının xatırladılmaması ilk növbədə qərarın “tamamilə məxfi” qrifi ilə qəbul edilməsi, ikincisi isə Qafqaz Bürosunun belə bir qərar qəbul etməyə səlahiyyətli olmaması ilə bağlı idi.

Ermənistan hökuməti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi istiqamətində ilk qanunsuz addımı hələ 1921-ci ilin yazında atmışdı. Həmin vaxt hökumət dairələrində “Dağlıq Qarabağın Ermənistan Respublikasına birləşdirilməsi haqqında məsələ üzrə əsas mülahizələr” adlı 6 bənddən ibarət sənəd hazırlanmışdı. Orada göstərilirdi ki, Dağlıq Qarabağ alçaq dağ zolağından ibarət təbii sərhədlərlə düzən Qarabağdan ayrılır.

**Ardı var**




## VƏLİ BACOĞLU

Gözün aydın olsun Vəli Bacoğlu,
Rasimin toyudur, mübarək olsun.
Qurban kəs gəlinə bir gözəl toğlu,
Rasimin toyudur, mübarək olsun.

Oynasın on yeddi nəvəm, nəticəm,
Dörd nəticəm, hələ dörd körpə cücəm.
Şükürlər olsun ki, nə qədər beçəm,
Rasimin toyudur, mübarək olsun.

Zənənlər oynayır kişi sayağı,
Qabağa salmırlar gələn qonağı.
Belə rəqs etməzdik biz gənclik çağı,
Rasimin toyudur, mübarək olsun.

Qeyrətli igidim, məğrurum, pirim,
Gözümə görünmür burda Zakirim,
Şükür, kişiləşib Araz tək nərim,
Rasimin toyudur, mübarək olsun.
Oynasın Elmira, Əsmər tək bacım,
Mənim oynamağa yoxdur əlacım.
Əyilib başımda Zakir tək tacım,
Rasimin toyudur, mübarək olsun.

Zakir qardaşların başıdır bilin,
Ağıllı baş bilən bizim bu elin.
Nəriman, vəsf etsin bu şair dilin,
Rasimin toyudur, mübarək olsun.

*16.06.2011*

## QİSMƏTİM OLDU

Heyif ki, ömrümün qoca çağında,
Bakıda yaşamaq qismətim oldu.
Sahibsiz saralıb bağça-bağım da,
Bu ahıl yaşımda töhmətim oldu.

Qapımda gəzirəm, qəlbim pərişan,
Köhnə üzümlükdən qalıb az nişan,
Baxdıqca kövrəldi qəlbim həmin an.
Mənə təsir edən zəhmətim oldu.
Dağılır sahibsiz evim-eşiyim,
Görünmür qapıda məstan pişiyim,
Boşalıb taxılla dolan yeşiyim,
Gündəlik dağılan sərvətim oldu.

İnsansız gözəl ev dağılır gündə,
Belə qalsa nələr olacaq öndə.
Mənə təsir edir qocalmış sində,
Tikəndə çəkdiyim əziyyətim oldu.

Kədər səni boğur indi Nəriman,
Artıq zəifləşir gündəlikdə can.
Hələlik yaşadır səni yaradan,
Bir təsəlli verən şöhrətim oldu.

*Yevlax rayonu Nərimanabad kəndi*
*17.06.2011*

## ATASININ QIRXI ÇIXMAMIŞ YAYLAQDA ŞƏRAB İÇƏNƏ

Qırxı çıxmayıbdır atanın hələ,
Çıxıb yaylaqlara kef eyləyirsən.
Birdən orda ruhu rastına gələ,
Söyləməzmi vicdanını əyirsən.

Hələ çürüməyib bədənim, canım,
Kef eyləyir dağda gözəl oğlanım.
A biqeyrət oğlum, qəmsiz aslanım,
Elə bil ki, soyadına söyürsən.

Baxıb sənə oxşayacaq övladın,
Ləkəli qalacaq daimi adın,
Güləcəkdir sənə yaxının-yadın,
O təmiz adına necə qıyırsan?

Eşidəndə qəhərləndi Nəriman,
Damarında dərhal tez qaraldı qan,
Söylədi ki, eşit və utan,
Biqeyrət olmağı niyə yayırsan?

*18.06.2011*

## NAR KÜSDÜ MƏNDƏN

Əriyə salam verdim, nar küsdü məndən,
Ondan əvvəl məni əkmisən, dedi.
Narı tərifədim dərhal yenidən,
Gənclikdə zəhmətim çəkmisən, dedi.

Hərlənirdin gündə yan-yörəmizdə,
Sənə baxıb fərəhlənirdik biz də.
Günlər sənsiz keçir - əlli də, yüz də,
Gəlişini artıq bükmüsən, dedi.

Niyə sahibsizdi tikdiyin saray?
Ona baxan yoxdur neçə həftə, ay.
Tək qalır hər payız, tək qalır hər yay,
Axı zəhmət ilə tikmisən, dedi.

Bu gözəl sarayın dağılıb gedir,
Hər baxan ürəyi pərişan edir.
Hərdən gec gəlməyin görəsən nədir?
Deyəsən qocalıb çökmüsən, dedi.

Nərimanam, söhbətdən çox qəhərləndim,
Bağçamda doyunca xeyli hərləndim,
Gördüm ki, dəyişib xeylicə kəndim,
Burda alın təri tökmürsən, dedi.

*19.06.2011*
*Yevlax rayonu Nərimanabad kəndi.*

## SİZİ ÜMİDGAHIM SANIRAM YALNIZ

*General Bəylər Eyyubov cənaba*

Ölkə başçısının Sizsiz sağ əli,
Atanızın xalası oğlu qalıb ac.
Sevinirdim siz bakıya gələli,
Sevinəni indi boğur ehtiyac.

Şükür vardır neçə özəl iş yerin,
Birisini tpşır mənə işləyim.
Sənin səbəbinə qəlb olar sərin,
Ay mənim sayılan sevimli bəyim.

Arzumdur canınız daim sağ olsun,
Üstümüzdən əksilməsin kölgəmiz.
Ucalsın başınız uca dağ olsun,
Siz mənim qəlbimdə əzizsiz, əziz.

Vətənimdə böyük olub hörmətin,
Onu qazanıbdır ağlın, kamalın.
Mənim dolanışım xeylicə çətin,
Ağır vəziyyətimi nəzərə alın.

Bir təqaüd yazdır ötübdür yaşım,
Qüsursu işlədim əlli üççə il.
Artıq qocalmışam ağarıb başım,
Mən şair babayam onu yaxşı bil.

Əgər sağ olsaydı xaloğlu Həsən,
Məni tapşırardı sizlərə dərhal.
Bahar xalam isə üstümdə əsən,
O idi qayğıkeş, gözəl əhlihal.

Nə edim fələyin gözü kor olsun,
Apardı Həsəni vaxtından əvvəl.
Allahım sizlərə daim yar olsun,
Başının üstünə Tanrım qoysun əl.

Nəriman Əyyubam, möhtacam deyə,
Məcburamki sənə açıram ağız.
Siz də ki, heç mənə olmursuz yiyə,
Sizi ümidgahım sanıram yalnız.

*16.03.2011*

## ALMADIM

"General"ı yazdım, sa ol almadım,
Şeiri göndərdim çıxmadı səsi.
Soyuqluğu ürəyimə salmadım.
Üstümə düşmədi olan kölgəsi.

Çoxlarını etdi mayor, polkovnik,
Nlar qürrələnib başı tutdu dik.
Mənə qarşı onlar oldular sönük,
Rütbələri verdi onun gur səsi.

Qaya kölgəsində yatdı çoxları,
Zəhmətsiz yığdılar dövləti-varı.
Güllükdən daima bar çəkir arı,
Hamıya bəhs edir bircə nəfəsi.

Nəfəsi çatmadı tək bircə mənə,
Nədənsə inandı kimsə deyənə.
Xahişlər eylədim mən dönə-dönə,
Xeyrimə olmadı bircə kəlməsi.

Nəriman, qəhərlənmə, boşdu bu dünya,
Zəhmətsiz yeyənə xoşdu bu dünya.
Deyəsən pozuldu, çaşdı bu dünya,
Hər şeyin gələcək axır vədəsi.

*03.04.2011*




## TU ŞEREFA MİNÎ, WELAT

Tu hurmet, syanet, kubra minî,
Ruhî, canî, xwîna minî,
Serkevtin û jîna minî,
Tawet, taqet, sebra minî.
Bê te jarim, welatê dê.

Bext û miraz, eşqa minî,
Mal û milkî, rengê minî,
Zar û ziman, dengê minî,
Agir, alav, cengê minî.
Bê te najîm, welatê dê.

Şeref, namûs, haya minî,
Nexş û nîgar, xemla minî,
Gav û sihet, roja minî,
Dîlan, dewet, şaya minî.
Ez fedayê teme, welat.

Seyran û geşt, kêfa minî,
Av û hewa, nanê minî,
Qedir, qîmet, tirba minî,
Bilindaya serê minî. "kef",
Tu rûmeta minî, welat.

Erf û edet, mafê minî,
Kevn dîroka gelê minî.
Dîn û îman, qubla minî,
Şefq-şemala rûyê minî,
Tu dayîka minî, welat.

Bê te ezî fekîr, jarim,
Bê hêlînim, bê sitarim.
Dîn û harim, sergerdanim,
Bê piştovan, bê xudanim.
Tu şerefa minî, welat.

Bê milk, bê şûn, him bê warim,
Dûmeka da tim suxarim.
Bê si, bê reh, bê rîçalim,
Bê rûmetim, bê pergalim.
Tu hêlîna minî, welat.

Pêkenîyê tew gela me,
Belengazê serê riya me,
Dinya ronik ez kor mame,
Ne xweda nê heqê xume,
Bîn-nefesa minî, welat.
Sirgûn, girtî, belengazim,
Pê sirûkî, him kolazim,
Sêfî, êswîl, bê perbazim,
Hemû para ez xilazim,
Hesretkêşê te me, welat.

Wekî ruyê xwe te xar kim,
Ji vê dinê zû firar kim.
Bibim xurê mişk û mera,
Şûn megirim li tu dera.
Rojêm bibin ax û keser,
Av, hewa min bibin meft-jehr.
Teyrên sîmir çavêm derxin,
Neyarê har goştêm vexin.
Mereza min qet qenc nebe,
Loxmanêd min peyda nebe.
Ker bim, lal bim, bibim ewter,
Dilê min da çiqbin xençer.
Desta merûm, çoka topal,
Pî navêjim ez be gopal.
Berf-teyrok min biqermînin,
Erd û ezman ne temlînin.
Şîrê daykê min heram be,
Bayê same li min rabe,
Hesret bibim nanê tisî,
Xwedê ser min danexe sî,
Merûm bibim herdu çavan.
Bibim xurê teyr û tevan.

Bê welatî – mezlûmîye,
Bê rusqetî, xulamîye,
Bê nav, bê deng, naqisîye,
Heqaretî, sêfîlîye.
Boy kê heye, şûn û welat,
Wî ra heye jîne, heyat.
Xwezil welat min bidîta,
Êş-merezê xwe bavîta.
Bigeryama ser axa heq,
Wir biçûyama ez mala heq.

## EZ ŞA NABİM

Hezar bahar bên, hezar carî vebin gul,
Hezar çem rabin, kanî bikin xule-xul.
Hezar best şînbin, bixemilin gelî, del,
Hezar neçar bên, destêm nagrin kar-emel.
Hezar rind werên, tev min bikin henek-naz,
Hezar saz lêdin, sazêm nayê tu awaz.
Heta sêfîl-jar, gazin bikin ji zemîn,
Heta xerîb hebin ez nakim qet qalîn.
Hezar maşoq-yar min ra bînin mizgîn-caw,
Hezar timtêşî bireqisin bedew-kaw.
Hezar dengbêj bên, biniçrînin pir dengî,
Hezar reng hebin, ez hilnadim tu rengî.
Heta daykam rind Kurdistan nebe aza,
Heta kur û keç şa nebin bext miraza.
Heta pêşmerge derneyên ji zaxên sar,
Heta dê û bav boy xwe nekin qazanc-kar.
Heta kal û pîr rehet nebin ser wara,
Heta Şivan zîz neqîre gund-bajara.
Heta piçûk-hûr ne civin li dibistîn,
Heta «Nûbaram» bilind nebe wek Yasîn.
Heta edlayî nebe para her yek Kurd,
Heta hebûnam nasnekin tew dîn û xurt.
Heta welêt da ez neçinim fekî-rez,
Heta boy welêt cawê nedim îdî ez.
Heta ala min nemilmile nav hewê,
Heta hudûdêm elam nebin li dinê.
Heta heykelê Feqî, Xanî daneynim,
Heta heyfa xwe ji sek Seddam nestînim.
Heta rast nebin tew planên faşe-xar,
Heta ji gêdûka berjêr nebin dê û zar.
Heta «Zor» dijmin neqifilin pêş Qazî,
Heta hemû Kurd nebin ji emir razî.
Heta dot û bûk derneyên ji zulm-qetlê,
Eger şa bibin, helal nabe min şîrê dê!
Ez şa nabim, ez şa nabim tu car, tu wext,
Heta ji neyar, ez nestînim tac û text.

## YA XUDANÊ, BÊ XUDANA!..

Erş û kursî te xuluqand, nav kir dinya,
Ruhber rabûn, te kîsî xwe para wan da.
Hinek geryan, hinek firyan, pak şiqitî,
Hinek hur bûn, fetisandin heqîqetî.
Parek lez ket, zû-zû çêkir jehr û alav,
Parek rûnişt li hev anî delk û dolav.
Hineka ra te da rusqet, bextewarî,
Me Kurda ra te timê şand tel, hejarî.
Hinek şa bûn, xemilandin koşk û sera,
Hinek revyan, tim qerisîn serê rîya.
Parekê ax timê kola, gotnê karger,
Parek geryan nava çîya, ew bûn rêncber.
Gotin: - Wê bê ew xudanê bê xudana,
Wê melhem ke kul û derda, him jî jana.
Tu nehatî, em helandin, kemitandin,
Kirin kizik, rûn-donê me nuqumandin.
Kî bû xwînrêj, te destê xwe pêşda wan da,
Te carkêva em bîr kirin nizam çima?
Em bûn hêsîr, zêwrê birçî xwîna me mêt,
Welat zêrya, me neqedand merem û nêt.
Nift me derxist, neyar bûn toq, kêf wan ajot,
Ked-heda me wana kirî, wana firot.
Qelsa sar da em zêrandin, em rizandin,
Wê wa bûya, te çima em xuluqandin?!

## GOTİN, ŞAÎR, EV ÇÎ HALE

Behra dîtim, cî leqîyan,
Erd û esman tev hejîyan,
Deşt-zozana hevra dengdan,
Dehrên gorav qerisîn, man.
Ji min kirin pirs-hewale,
Gotin, şaîr, ev çi hale.

Terewula kirin zêwîn,
Kew-bilbila nekir kakîn,
Zer-zinara kir hêwurze,
Orman avît xemla teze.
Ji min kirin pirs-hewale,
Gotin, şaîr, ev çi hale.

Şivîn bilûr da ser lêva,
Berxvan barand hêsrên çeva,
Bû kalîna berx û mîya,
Keskesorê da ser çîya.
Ji min kirin pirs-hewale,
Gotin, şaîr, ev çi hale.

Pîra, kala hêsr rêtin,
Dayka zelûl kilam gotin,
Dota qetand torê mircan,
Bûka avît kofî-kitan.
Ji min kirin pirs-hewale,
Gotin, şaîr, ev çi hale.

Teyrik, leqlek min sekinîn,
Qaz-qulinga nekir qîrîn,
Sosin, rihan cî binisîn,
Sorgul, mendik zû çilmisîn.
Ji min kirin pirs-hewale,
Gotin, şaîr, ev çi hale.

Ketim nava mitalê kûr,
Xema birim heyamên dûr,
Dinya fire min mêze kir,
Hal-hewalê xwe qise kir…

Lêvêm hejyan, devêm tel bû,
Dil tevzî da, serêm mêl bû,
Kelexûya dane ser min,
Sebir, tawet ne ma li min.

Welatê xwe min anî bîr,
Gundê vala, zarên hêsîr,
Qetla neheq, xûşkên ser reş,
Gêrîlayên mêrxas-keleş.

Zaxên tarî, zindanên sar,
Bore-bora neyarên har,
Dêrêzbûna zoma, wara,
Kaf-kûn kirina gund-bajara.

Jan êşê xwe min rêz kirin,
Ji bextê xwe gazin kirin:
- Gelo çima mezin Xuda,
Ev zulma pir boy Kurda da?

Bedesla em bê war kirin,
Dîroka me înkar kirin.
Kirin çar par tew axa me,
Talan dikin mal-milkêd me.
Heta kengê halê wa be,
Hejar Barî bi çi şa be?

www.netewe.com

# ŞƏRƏF XAN BİDLİSİNİN «ŞƏRƏFNAMƏ» ƏSƏRİ KÜRD XALQININ TARİXİ MƏNBƏYİ KİMİ

**Əvvəli ötən saylarımızda**

Kürdüstanda ağalıq edən Osmanlı paşaları kürd tayfalarını bir-birinə qarşı qoymaq üçün müxtəlif yollardan istifadə edirdilər. Beləliklə də onlar qardaş bir xalqın arasında nifaq salırdılar. Məsələn, 1586-cı ildə vəzir Fərhad paşa Dünbili tayfası ilə Mahmudi tayfası arasında qəsdən vuruşma saldı. Bidlisi yazır ki: «Həmin vuruşma nəticəsində 80 nəfərdən çox kürd öldürüldü (76, 316-317). Dünbili tayfasının başçısı Nəzər bəy də bu vuruşmada öldürüldü. Onun qardaşı Qılınc bəy isə bu məsələ ilə əlaqədar şikayət etdisə də, bir nəticə hasil olmadı. Bidlisi göstərir ki: «Şikayətə baxılan zaman mən də iştirak edirdim. Fərhad paşa məsələni örtbasdır etmək üçün onları barışdırdı» (76, 317).

Ümumiyyətlə, Kürdüstanın birinci dəfə bölünməsindən (1514) sonra kürd xalqının tarixində bu cür hadisələr adi bir şəkil almışdı. Həm Osmanlı, həm də Səfəvi dövlətinin kürd xalqına qarşı mənfi siyasətləri sonralar da Osmanlı sultanları və İran şahları tərəfindən davam etdirilirdi. Ona görə də XVI əsrin əvvəllərindən başlanan həmin siyasət kürd tayfa başçılarını müstəqillik hüququ uğrunda elə bir mübarizəyə qaldırdı ki, o mübarizə uzun illər davam etdi.

**SƏFƏVİLƏRİN KÜRD xalqına MÜNASİBƏTİ**

XVI əsrin başlanğıcında Kürdüstanla qonşu olan İran ölkəsində ictimai-siyasi və iqtisadi vəziyyət son dərəcə gərgin idi. Ölkə bir neçə xırda feodallıqlara bölünmüşdü. Bu feodallıqlar arasında baş verən daxili müharibələr nəinki təkcə ölkənin siyasi birləşməsinə mane olurdu, eyni zamanda ölkə daxilindəki əlaqəni də çətinləşdirir və ticarətin inkişafını ləngidirdi. Daxili feodal müharibələri nəticəsində şəhər və kəndlər qarət edilir, əhali varyoxdan çıxırdı. Beləliklə də şəhər və kənd zəhmətkeşlərinin güzəranı daha da çətinləşir və Ağqoyunlu hakimiyyətinə qarşı ümumi narazılıq artırdı. Həmin dövrdə Ağqoyunlu hökuməti bu vəziyyətə son qoymağa qadir deyildi, çünki o hakimiyyətdən yalnız quru ad qalmışdı.

Beləliklə, XVI əsrin lap əvvəllərində ölkəni siyasi cəhətdən birləşdirmək, vahid mərkəzləşmiş dövlət yaratmaq işi tarixi bir zərurət kimi qarşıda dururdu. Məhz belə bir çətin dövrdə I Şah İsmayıl Səfəvi Azərbaycanda yeni dövlət yaratmaq təşəbbüsünə düşdü. O, ata tərəfindən özünü Əli nəsli və şiələrin rəhbəri, ana tərəfindən isə Ağqoyunlu sülaləsinin həqiqi varisi hesab edirdi31. I Şah İsmayıl yeni hakimiyyət yaratmaq uğrunda mübarizəyə başlayaraq 1499-cu ildə öz tərəfdarları ilə birlikdə Ərdəbil şəhərinə gəldi. Bir il sonra 7 min nəfər müridin köməyi ilə Şirvanşah Fərrux Yəssarı məğlub etdi. Həmin ildə Şah İsmayıl şiddətli vuruşmadan sonra Bakını da özünə tabe edə bildi. O, Şərur kəndində baş verən müharibədə Ağqoyunlu Əlvənd Mirzəni məğlub edib çoxlu sərvət: at ilxısı, mal-qara ələ keçirtdi. Həmin vuruşmada məğlub olan Əlvənd Mirzə Ərzincana qaçdı. 1501-ci ildə Şah İsmayıl Səfəvi Təbrizə daxil olub təntənəli surətdə özünü şah elan etdi.

Beləliklə də, Azərbaycanda Səfəvilər dövləti yarandı. Bu dövlət dərhal şiə məzhəbini rəsmi dövlət dini elan etdi və bu haqda şah tərəfindən (112, 34) fərman verildi. I Şah İsmayıl Səfəvinin hakimiyyətə keçməsində ona yardım edən türk dilli Ustalu, Şamlu, Rumlu, Təkəlu, Zülqədər, Əfşar və Qacar tayfaları Qızılbaş ordusunu təşkil etdilər. Onlar şahın bütün işğallarında iştirak edib, alınan vilayətlərin başçısı təyin olunurdular. I Şah İsmayıl tərəfindən əsası qoyulan Qızılbaş ordusunun əsas qüvvəsini ox, kaman, qılınc, nizə, təbərzin və qalxanla silahlanmış piyada və çoxlu süvari qoşun təşkil edirdi.

Beləliklə, I Şah İsmayıl Səfəvi öz hakimiyyəti dövründə Azərbaycan və İranda vahid mərkəzləşmiş dövlət yaratmaq üçün böyük hərbi ordudan və Səfəvilərin müridlərindən istifadə etmişdir. Bidlisi yazır ki: «Şahın şöhrət və şücaətini eşidən şiələr Suriyadan, Türkiyədən və Kürdüstandan gələrək, Səfəvilərin bayrağı altında birləşdilər» (76, 69). I Şah İsmayıl Səfəvi hərbi və mənəvi cəhətcə silahlanmış bu böyük qüvvəyə istinad edərək, 1502-ci ildə Həmədan yaxınlığında baş verən müharibədə Ağqoyunlu Sultan Muradı da məğlub etdi. Mənbələrdəki məlumata görə həmin vuruşmada Ağqoyunlulardan 10 min nəfər öldürülmüş və çoxlu əsir alınmışdı (59, 68; 113, 83).

1510-cü ildə I Şah İsmayıl özbək Şebk xanla (ona Şeybani xan da deyilir) apardığı müharibədə onu məğlub edib, Xorasan əyaləti ilə birlikdə Mərv, Bəlx və Herat şəhərlərini də ələ keçirtdi.

Beləliklə, XVI əsrin əvvəllərində I Şah İsmayıl Səfəvi Azərbaycan və İran ölkəsində olan bir sıra feodallar üzərində qələbə çaldı. Əldə etdiyi torpaqları Qızılbaş sərkərdələrinə tiyul şəklində tapşırdı. XVI əsrin ortalarından Səfəvilər dövlətinə tabe olan 74 əyalət və vilayət əmirlərindən 60 nəfəri azərbaycanlı idi. I Şah İsmayıl 1504-cü ildə Osmanlı sultanı II Bayəzidə məktub yazıb tələb edirdi ki, Osmanlıdı vilayətlərindən Ərdəbilə ziyarətə gələn səfəvi sülaləsinin müridlərinə toxunmasınlar və onların ziyarətə gəlmələrinə mane olmasınlar. Bu barədə «Münşaat Səlatin» də belə deyilir: «Sultan Bayəzid I Şah İsmayıla cavab olaraq bildirdi ki, Ərdəbilə gəlmək istəyən bir çox zəvvarın məqsədi ziyarətə gəlmək deyil, əskərlik xidtmətindən qaçmaqdır. Əgər onların Azərbaycana gəlməsi müvəqqəti olarsa, buna heç kəs mane olmaz» (98, 345-346). I Şah İsmayyılla Sultan Bayəzid arasındakı bu məktublaşma gələcəkdə baş verən böyük müharibələr və dini toqquşmalar üçün müqəddimə oldu. Osmanlı ölkəsində olan şiələr I Şah İsmayılın bu təşəbbüsündən ruhlanıb sultan hakimiyyətinə qarşı üsyan qaldırdılar.

Şah öz şiə tərəfdarlarını Azərbaycana gətirmək məqsədilə Nurəli xəlifə Rumlunu o mahala göndərdi. Xəlifə Qara Hasar rayonuna çatan zaman Osmanlı hökumətinə qarşı üsyan edən şiələrdən 4 min nəfər atlı öz ailələri ilə birlikdə onunla birləşdi (59, 135). Xəlifə qayıdarkən bir sıra kürd vilayətlərini, o cümlədən Ərzincanı, Məlatiyyə, Xonc və sairəni qarət etdi (59, 135). Həmin tarixdən etibarən, yəni 1506-cı ildə şah öz istilalarını Azərbaycan və İran torpağından xaricə yönəltdi. O, Kürdüstan, Ermənistan, Gürcüstan və İraqƏrəb ölkələrini də işğal etməyə hazırlaşdı. Şah ilk dəfə olaraq Kürdüstanı istila etməyə başladı, çünki Ağqoyunlular tərəfindən işğal edilmiş bir sıra kürd vilayətlərini o, özünün həqiqi ərazisi hesab edirdi.

Kürd vilayətlərinin Qızılbaşlar tərəfindən qarət edilməsi kürd xalqının ümid gözlədiyi Səfəvilər dövlətinin ilk zərbəsi oldu. Bundan sonra Şah İsmayıl Səfəvi kürd əmirliklərini bir-birinin ardınca istila edib Qızılbaş sərkərdələrinə tapşırdı (76, 124-407). Mənbələrdəki məlumata görə o, hakimiyyətinin ilk vaxtlarında (1500-1510-cu illərdə) bir sıra istilalarla məşğul olmuş və 5 böyük müharibələrdə qalib gəlmişdir (75, 8). Həmin dövrdə Şah İsmayıl Azərbaycan və İran ölkəsindən başqa, Kürdüstanın çox hissəsini və Bağdadı da işğal etmişdir (92, 392). I Şah İsmayıl Səfəvinin bu siyasətindən kürd xalqı başqa xalqlara nisbətən daha çox zərər görmüşdür.

K.Marks I Şah İsmayıl Səfəvinin istilaçı bir hökmdar olduğunu qeyd edərək yazır: «14 illik hakimiyyəti dövründə o, 14 əyaləti fəth etmişdir» (1, 206). Səfəvi şahları tərəfindən həyata keçirilən bu siyasət XVI əsrin axırına qədər davam etdi. İskəndər Münşi yazır ki: «II Şah İsmayıl hər bir tayfa əmirinə müəyyən bir mahalı bəxş edirdi. O cümlədən Ələşkərd vilayətini də Sulaq Hüseyn




Təkəluya verdi və onu Kürdüstana göndərdi» (47, 212). Bu meyl I Şah İsmayılda daha çox olmuşdur. Buna görə də Şah İsmayıl öz hakimiyyətinin ilk vaxtlarından Kürdüstanı silah gücü ilə istila etməyə başladı. Bidlisi göstərir ki: «O, Diyarbəkir, Mosul və Səncər vilayətlərini işğal etdi. Cəzirə vilayətini istila etmək üçün qoşun göndərdi» (76, 124).

Beləliklə, özünü şiələrin yeganə müdafiəçisi hesab edən I Şah İsmayıl Osmanlı sultanlarına qarşı mübarizə etmək üçün Kürdüstan torpaqlarını zorla ələ keçirmək və bu yerləri guya yağılardan32 təmizləmək məqsədini irəli sürdü.

Rəşid Yasəminin fikrinə görə şahın Kürdüstandakı bu işğalları kürd xalqı arasında hökm sürən tayfa quruluşuna son qoymaq məqsədini güdmüşdür (69, 203). Əslində isə I Şah İsmayıl Səfəvi dövrün digər şah və sultanları kimi öz hakimiyyətini qorumaq üçün işğalçılıq siyasəti aparırdı.

Digər tərəfdən də istər Səfəvilər dövləti və istərsə də Osmanlı sultanları kürdlər arasındakı tayfa quruluşunu ləğv etmək deyil, kürd ərazisini öz zadəganlarına verməklə kürd xalqını yox etmək siyasəti aparırdılar. Elə buna görə də hər iki istilaçı dövlət kürd xalqının ciddi müqavimətinə rast gəlirdi.

Beləliklə, XVI əsrin əvvəllərindən etibarən kürdlər əleyhinə davam edən siyasət Səfəvilər dövlətinə müsbət nəticə vermədi. Bu vəziyyətdən istifadə edən Osmanlı sultanları isə işin əvvəlində hiyləgər siyasət apararaq özünü kürd xalqının hamisi, eyni zamanda sunni məzhəbinin yeganə tərəfdarı kimi göstərdi. Bundan sonra Kürdüstan hər iki dövlətin müharibə meydanı və dini rəqabət mərkəzi oldu. Ümumiyyətlə, I Şah İsmayıl Səfəvinin kürdlərə münasibəti son dərəcə mənfi olmuşdur.

Çaldıran müharibəsindən (1514) sonra Kürdüstanın cənub-şərq hissəsi Səfəvilər, qərb hissəsi isə Osmanlı dövlətinin əlində qaldı (30, 10). Şah İsmayıl Ərdəlan əyalətini kürd əmirliklərindən toplanan vergi üçün mərkəz edərək, ona «Ərdəlan» xəzinəsi adı verdi. Şah kürdlərdən ibarət ayrıca ordu təşkil edib onu Kürdüstan ordusu adlandırdı. Ən ağır vuruşmalarda Kürdüstan ordusu iştirak etməli idi. Həsən Rumlunun yazdığına görə Səfəvilər hakimiyyətinə qarşı üsyan edən Ağa Məhəmməd Ruzefsunu məğlub etmək üçün göndərilmiş (59, 173) Kürdüstan ordusu qələbə ilə geri qayıtmışdır.

**(Ardı gələn sayımızda)**

# DEMƏYƏ SÖZÜM VAR...

## Avropalılar axmaqdırlar?

Bu günlərdə Fransanın və Fransaya aid hər şeyin tənqidi bizdə adi hal olub. Lakin azərbaycanlıların və türklərin hisslərini özlərindən başqa heç kim başa düşməz, avropada və ABŞ-da onları anlamazlar. Daha doğrusu, bu anlayış təxminən belədir: Əlbəttə, siz Osmanlı İmperiyasının əməllərinə görə məsuliyyət daşıya bilməzsiniz, bu, 100 il əvvəl olub, artıq həmin dövlət yoxdur, sadəcə insanlar həlak olub, çox sayda günahsız insanlar, odur ki, biz buna göz yuma bilmərik. Bu sivil dünyanın həyat qanunudur - ədalətsizliyə göz yummamaq və zəif və müdafiəsiz olanı qorumaq.

1998-ci ili – bir qrup jurnalistimizin Yerevana səfərini yada salıram. Bir dəfə axşam saatlarında bir qrup erməni həmkarımızla söhbət edərkən soyqırım mövzusuna toxunduq. Həmsöhbətlərimə belə sual verdim: Tutaq ki, soyqırım olub, izah edin görüm, öz vətəndaşlarını öldürmək türklərin nəyinə lazım idi? Buna yerli mətbuat klubunun rəhbəri belə cavab verdi – ermənilərin əmlakına sahib olmaq üçün. Türklər bilirdilər ki, ermənilər çox zəngindir və varlanmaq üçün bu vəziyyətdən istifadə etdilər.

Tutaq ki, belə olub – deyə mən cavab verdim, - türklər erməniləri məhv edərək, onların əmlakını mənimsəməyi qərara alıblar. Amma ermənilər onlara qarşı belə davranmaları üçün əsas vermişdilər ya yox?

Bu sualı eşidən elə həmin jurnalist həmkarım üzündəki qəzəbli ifadəni gizlədə bilmədi və "ermənilər nə etsələr də, onları öldürmək olmazdı" mənasına gələn bir şey dedi.

**Ermənilər nə etmişdilər?**

Yüz minlərlə insanın qaçqına çevrilməsi və bunun nəticəsində minlərlə qurban. Bu baş vermək için ermənilər nə etməli idilər?

Erməni həmkarlarım heç cürə etiraf etmək istəmirdilər ki, türklərin kəskin reaksiyasına ermənilərin, daha doğrusu, onların liderlərinin və ilk növbədə ziyalılarının kütləvi satqınlığı səbəb olub. Erməni hərbiçiləri kütləvi olaraq fərarilik edərək, rus qoşunlarının tərəfinə keçib öz ölkələri olan Türkiyə qarşı döyüşməyə başlayanda, yerli türk və kürd əhali qətlə yetiriləndə və ermənilərin öz dövlətlərini yaratmaq istədikləri ərazilərdən qovulanda, onların milli qəhrəmanları olan Andranik, Njde, Dro və bir çox digərləri məhz belə hərəkət etdilər. Baxmayaraq ki, buna qədər onların bir qismi Türkiyə vətəndaşları idilər və türk ordusunda qulluq edirdilər.

Əlbəttə, ermənilər birdən birə belə bir çılğınlığa əl ata bilməzdilər. Onları buna Antanta ölkələri, daha sonra isə Rusiya təhrik edirdi.

Birincilər Osmanlı İmperiyasını dağıtmaq, türkləri Balkanlardan, Yaxın Şərqdən qovmaq və bu bölgələri nəzarətləri altına almaq məqsədi güdürdülərsə, rusların məqsədləri daha kiçik, amma analoji idi – müasir Türkiyənin Cənubi Qafqaza bitişik şərq bölgələrini əllərinə keçirmək.

**Bu işdə onlara kim yardım edə bilərdi?**

Ermənilərin axmaq deyil, qurban olduqları fikri ilə razıyam. Lakin vətənpərvərlik pərdəsinə örtülmüş siyasətçilərin yanlış qərarlarının məişət axmaqlığından daha ciddi nəticələri olur.

Almanlar Xolokostu etiraf edərək, qurbanlara kompensasiya ödəməklə buna nümunə oldular.

Türklərin də belə addım atacağı fikrindən uzağam və güman edirəm ki, 1915-ci ildə ermənilərə qarşı atılan addımlar həddini aşmışdı. Məsələ ondadır ki, ermənilər ən əhəmiyyətsiz bir şeyi – bu repressiyalara əsas verdiklərini etiraf etmirlər.

Ermənilər türklərlə birlikdə ölkələrinin müdafiəsinə qalxsalar və ONLARIN ölkəsinə göz dikənlərin qanını axıtsalar 1915-ci il hadisələri olardımı? Amma o illərdə ermənilər üçün Türkiyə artıq öz ölkələri deyil, ələ keçirmək istədikləri (ermənilərin versiyasına görə, tarixi vətənlərini azad etmək) ərazi idi. İşğalçılar isə o zaman da məhv olunurdu.

**Erməni xarakterinin spesifikası**

Məşhur avropalı politoloq Conatan Koen Londonda konfranslardan birində məsələ dönmüş bir ifadə səsləndirdi: Qarabağ münaqişəsinin həllinə erməni xalqının xəstə psixologiyası mane olur. Onunla razılaşmamaq çətindir. Xəstəliyin miqyası – az qala bütün milləti əhatə edir – onun müalicə edilə bilməyəcəyini göstərir.



Ermənilər üçün 1915-ci ilin yekunu tək ideya ilə yaşamaq oldu – hər yerdə, hər zaman və istənilən yolla türklərdən qisas almaq. Öz tarixlərini, o cümlədən ən yeni tarixi mifləşdirmək çox qısa bir zamanda gənc nəslin 1915-ci il hadisələri ilə bağlı tərbiyəsi üçün müntəxəbata döndü. Bu hadisələrdə öz məsuliyyətlərini etiraf etməkdən imtina türklərin guya ermənilərin əmlakını ələ keçirmək üçün onları məhv etmək qərarına gəldiyi barədə fikir yaradır. Həm də ermənilərin türk sultanları yanında yüksək dövlət vəzifələri tutduqları, parlamentin üzvü olduqları, çoxsaylı dövlət vəzifələrində çalışdıqları, bütün Türkiyədə böyük əmlaka sahib olduqları bir halda. Belə çıxır ki, türklər erməniləri bir gündə kəsmək üçün yüz illər boyunca yedirir və bəsləyirdilər?

Bütün bu suallara ermənilər adətən belə cavab verirlər: soyqırım olmadı isə, niyə ermənilər bütün dünyaya səpələniblər?

Maraqlı məntiqdir. İstənilən halda, uşaqlarda türklərə aid hər şeyə nifrət aşılamaq üçün, İkinci Dünya Müharibəsindən sonra firavan ölkələrdə yetişən erməni nəsillərinin bütün dünyada türkləri qətlə yetirmək və soyqırıma görə qisas almaları üçün ASALA – terror təşkilatı yaratması üçün kifayət edər. 70-80-ci illərdə bütün dünyada türk diplomatlarına və türk nümayəndəliklərinə qarşı törədilmiş onlarla terror aktları dünya ictimaiyyətinin diqqətini çəkməyə bilməzdi. Bu terror aktlarını mühakimə edərkən onlar on, bəzən isə yüz minlərlə nümayəndəsinin Fransa, ABŞ və digər ölkələrdə faciələri haqqında dəhşətli tarixlər danışan erməniləri "insanpərvərcəsinə" anlayırdılar.

Ermənilərdən öz maraqları üçün istifadə edən Avropa və Rusiya avropalıların və rusların türklərdən daha çox günahkar olduqları, daha çox insanın qanına görə onların məsuliyyət daşıdığı bu tarixi başa düşür və mənəvi bəraət verirdilər.

Ədalət naminə deməliyəm ki, bir çox ermənilər bütün bunları dərk edir və hətta pisləyirlər. amma bu gün sağlam düşüncə və ayıq mühakimənin həmin avroamerikanruslar tərəfindən işlədilən qlobal erməni maşını qarşısında gücsüz olduğu bir tarixi mərhələ başlayıb.

Sivil dünyanın mənəvi dəstəyi sadəcə donkixotluq deyil, insan alicənablığıdır ki, ondan asanlıqla istifadə etmək olar. Bundan başqa, dərdə şərik olma oyunu həm də siyasətçilər üçün "normal" biznesdir. Hər şeydən pul çıxarmaq olar. Hətta yəhudi antisemitizm üzərində biznes qura bilər, Jirinovski kimi. Amma qəddar və abırsız siyasətçilərdən başqa, erməni ideyasına hörmətlə inanan ziyalılar və sadəcə namuslu insanlar da var. Məhz bu insanlar ölkələrində soyqırımın qanunverici səviyyədə tanınmasını və hətta onun inkarına görə cəza qanunu qəbul edilməsini mənəvi borcu hesab edən təbəqədir.

Bu yaxınlarda belə insanlardan biri ilə qarşılaşdım və çox təəccübləndim. Bir tanışım, hörmətli beynəlxalq təşkilatlardan birinin nümayəndəsi mənə bildirdi ki, soyqırımın inkarı haqqında qanun pis və ədalətsizdir və ifadə azadlığı daha üstündür. Lakin erməni soyqırımı olub və bu, şübhə doğurmur, heç kim bunu inkar edə bilməz.

Ona bir neçə sual verdim: niyə Fransada və digər ölkələrdə yalnız iki soyqırımdan – yəhudi və erməni soyqırımından danışırlar? Axı, İkinci Dünya Müharibəsi illərində Stalinin yüz minlərlə çeçeni, qaraçaylını, inquşu, balkarı, çərkəzi qətlə yetirməsi nəticəsində Şimali Qafqaz xalqlarının da soyqırımı olub. Onlardan başqa, məshəti türkləri, qumuqlar, daha əvvəl isə Povolje almanları repressiyaya məruz qalıb və deportasiya olunub. Ümumilikdə milyonlarla insan. Onlardan bir çoxları Sibirdə və Qazaxıstan çöllərində sağ qalmağı bacarıblar. Bu soyqırımın miqyası o qədər böyükdür ki, Xruşov zamanında repressiyaya məruz qalmış xalqlar haqqında xüsusi qanun qəbul edilib.

Elə həmin vaxt İkinci Dünya Müharibəsində amerikalılar ABŞ-da minlərlə yaponu tərksilah edərək, deportasiya edib. Sonradan əlcəzairlilərin, kambocalıların, ruandiyalıların, bosniyalilarin və s. soyqırımı olub.

Beləliklə, niyə Qərbdə bu soyqırımların inkarı haqqında qanun yoxdur? Buna belə cavab verə bilərlər: Fransa qanunları istənilən soyqırımın inkarını pisləyir. Amma onda yəhudiləri və erməniləri xüsusi qeyd etmək nəyə lazımdır? Bəlkə onlar xüsusidirlər və ya avropalılara yaxın idilər? bu dəlillər tanışımın mövqeyini dəyişmədi, o, sadəcə sözümü kəsərək: mən erməniyönlü mövqeyimi gizləmirəm və sənin ölkəndə nə düşünəcəkləri vecimə deyil!, - dedi.

Bəlkə avropalılar axmaqdırlar? Amma başqa bir nəticə də çıxarmaq olar: normal insan belə düşünürsə, bu, müəyyən işin və səyin nəticəsidir. Bütün bir millət 100 ağlayıb, dərdinə şərik olmağa çağırırsa, inanan tapılar. Amma elə etmək lazımdır ki, avropalılar digər fikri də öyrənsinlər və yanıldıqlarını başa düşsünlər.

Bunun baş verməsi və bizə inanmaları üçün Qərbdə Heydər Əliyev haqqında deyil, Qarabağ haqqında kitablar dərc olunmalıdır. Ötən əsrin əvvəllərində və daha öncə - Rusiyanın regionu müstəmləkələşdirdiyi dövrdə Cənubi Qafqazda baş verənlər haqqında. 1918-1920-ci illərdə Yerevan Quberniyasında, Zəngəzurda və digər regionlarda azərbaycanlıların məhv edilməsi haqqında və nəhayət Xocalı haqqında.

Lakin bu səviyyədə təbliğat yaxşı təhsil və bilik, bacarıq və vətənpərvərlik tələb edir və sadəcə bununla məşğul olanlarda deyil, göstəriş verənlərdə də.

Parisdə ailə sərgiləri təşkil etmək, əlbəttə ki, mənliyini təsdiq etmək üçün vacibdir, amma hərdən bir mövzuları müxtəlifləşdirmək yaxşı olardı.

**Türkiyə-Azərbaycan ittifaqı**

Bu məqaləni yazarkən Avropa ölkələrində səfərdə olan sahibkar dostum Maastrixtdən mənə, özünün ifadə etdiyi kimi, "qəlbinin səsini" göndərdi. O, bizim və türklərin erməni təbliğatına qarşı durmaq üçün nə etməli olduğumuzu mühakimə edir. Onun bir qədər qarışıq və emosional ifadələrində diqqətəlayiq irad və müşahidə var. Bu ondan ibarətdir ki, xarici düşmənlər və təhlükələrlə mübarizə aparan türklər və azərbaycanlılar ilk növbədə öz münasibətlərini müəyyən səviyyəyə qaldırmalıdırlar.

Biz bir-birimizi yalnız bir şey baş verəndə yada salmamalıyıq. Ani maraqlar və ya siyasi konyunktura üçün bir-birimizin maraqlarını əl çəkmək olmaz, ötən il Ermənistan-Türkiyə sərhədinin açılması haqqında məsələ qaldırıldığı zaman olduğu kimi.

Bu gün bəzi türklər Azərbaycanı qınayırlar, onlar Bakının təzyiqlərinə güzəştə getməsəydilər və sərhədi açmağa razılaşsaydılar, Fransa Senatında hazırki vəziyyət yaranmazdı. Bu kimi ifadələri dinlədikdə bizim bir-birimizdən nə qədər ayrı olduğumuzu anlayırsan.

Avropada və bütün dünyada türklər və azərbaycanlılar bu məsələlərdə birgə strategiya hazırlayıb, razılaşdırılmış şəkildə hərəkət etmədikcə, bu, mane olacaq və düşmənlərə ziddiyyətlərdən istifadə etmək imkanı verəcək.

***Şahin Hacıyev,***
***contact.az***

# Demokratik cəmiyyət konqresi Öcalana azadlıq istədi!

Türkiyənin Diyarbəkir vilayətində Demokratik Cəmiyyət Konqresinin (DCK) iki gün davam edən İdarə Heyəti yığıncağı sona çatıb.

Toplantının nəticəsi olaraq terrorbaşı Abdullah Öcalana azadlıq istənilib. Diyarbəkirdə təxminən 800 nəfərin iştirakıyla keçirilən toplantıda DCK rəhbəri və Mardin Müstəqil millət vəkili Əhməd Türk, köməkçisi Van müstəqil millət vəkili Aysel Tuğluk, millət vəkili Altan Dan, Nursel Aydoğan, Ayla Akat Ata, Diyarbəkir Bələdiyyə başçısı Osman Baydemir də iştirak ediblər. Aysel Tuğlukun oxuduğu bəyanatda bildirilir ki, AK Partiya hökumətinin iqtidara gəldiyi gündən bəri demokratiya, vətəndaş və azadlıq ehtiva edən bir siyasət həyata keçirəcəyini açıqlamasına baxmayaraq, 10 illik fəaliyyətlərində 80 illik Kamalist Respublikanın siyasəti arasında öz etibarıyla kürd xalqı baxımından dəyişən heç bir şey olmayıb.



Tuğluk, AK Partiyanın kürd xalqına münasibətinin yalan küləyi üzərində qurulduğunun aydın olduğunu söyləyərk, "bir daha hökumətin və demokratik ictimaiyyətin bilməsini istəyərik ki, kürd xalqı siyasətçiləriylə, təşkilatlarıyla xalqın köklü dəyərlərinə qarşı mübarizədən dönməyəcək. Şeyx Səid, Seyid Rıza, Melle Mustafa, Qazi Məhəmməd kimdirsə, hörmətli Öcalan da xalqımız üçün odur. Müzakirələrin müvəffəqiyyətlə davam etdirilməsi və nəticə əldə olunması üçün Öcalana müzakirələrə yardım edə biləcəyi imkanlar verilməli və azad şəkildə siyasi fəaliyyət göstərməsinə şərait yaradılmalıdır."

**Xəzərxəbər.com**

# Kılıçdaroğlundan Ərdoğana ağır ittiham

CHP lideri Kamal Kılıçdaroğlu, partiyasının idarə heyətinin toplantısında baş nazir Ərdoğanı, İslam dünyasında məzhəb qarşıdurması yaradan siyasət yürütməkdə ittiham edib



CHP lideri Kamal Kılıçdaroğlu, "Qüsura baxma baş nazir sən dindar filan deyilsən, sən din alverçisisən", - deyib.

Ərdoğanın bütün İslam dünyasında məzhəb qarşıdurması yaratmaq istədiyini iddia edən CHP lideri Kılıçdaroğlu bildirib ki, İslam dünyasında birliyi və qardaşlığı təmsil etmək potensialına sahib bir ölkə var. O da Türkiyədir. Sən o Türkiyəyə sahib çıxacaqsanmı? İndi İslam dünyasında məzhəb qarşıdurması yaradan siyasət aparırsan. AK Partiyanın İslamla əlaqəsi yoxdur. Heç əxlaqsızlıqla İslam bir yerdə ola bilərmi?. "Mən gözəl əxlaqı tamamlamaq üçün göndərildim" - deyən uca peyğəmbər əxlaqı ucaltmışdır. Haram ilə halal arsında fərq qoymayan, qul haqqına riayət etməyən, yetim haqqı yeyəndən dindar olmaz. Xalqın malına, dövlətin malına əl uzadan adamdan heç vaxt dindar olmaz. Sən bu milləti fitrəylə, zəkatla, sədəqəylə, qurban dərisi, qurban puluyla etdiyi köməkləri yığıb suiistifadə edən adamları ədalətin çəkindən xilas edirsən.

Baş nazir Ərdoğanı haqsızlıqlar qarşısında susmaqla tənqid edən Kılıçdaroğlu, "İraqda 1.5 milyon insan öldürüldü, sənin tükün tərpənmədi. Haqsızlıq qarşısında susan dilsiz şeytandır. Qəzzafi parçalandı, susdun. Sən mənə əxlaq dərsi verirsən. O Qəzzafi ki, Kipr problemində Türkiyəyə Türkiyəyə pz kürəyində yardım daşıyıb. Qüsura baxma baş nazir sən dindar filan deyilsən, sən din alverçisisən. Dindar insanların inanclarını istismar edən bir insansan. İstismar etdiyin dindarları sənin əlindən xilas etmək CHP-nin borcudur", - deyə bildirib.

# TÜRKİYƏLİ YAZARDAN YANLIŞ VƏ TƏHLÜKƏLİ MÖVQE



Türkiyəni və Azərbaycanı məzhəb ayrımı ilə ayırmaq cəhdi göstərilir

Türkiyədə fəaliyyət göstərən "Habertürk" qəzetinin yazarı Fateh Altaylının ziddiyyətli bir yazısı dərc olunub.

Yaxın Şərqdə Türkiyəyə qarşı məzhəb savaşı açmaq planından bəhs edən yazıda Azərbaycanın və onun dövlət başçısının da əleyhinə bir sıra mülahizələr var. Müəllif iddia edir ki, Türkiyəyə qarşı savaşa Azərbaycan da daxil ola bilər, çünki Türkiyədə sünnilər üstünlük təşkil edir, Azərbaycan isə şiə ölkəsidir.

F.Altaylı yazır ki, Azərbaycanın İran və Suriyaya qoşulma potensialı var: "Bölgəni bilən bir dostum "Azərbaycanı İranın, Suriyanın səfində görsən, şaşırma" demişdi. Haqlı".

F.Altaylı Azərbaycanla İranın məzhəb birgəliyinə görə iç-içə olduğunu yazır: "İranı idarə edən 7 nəfərlik komitənin, ayətullah Xamneyi daxil olmaqla, 5-i şiə azərbaycanlılardır. Əliyev də kürd kökənli şiədir".

Müəllif düşünür ki, indiki dönəmdə Azərbaycanın İranın yanında yer almasının tək əngəli ABŞ-dır.

Qeyd edək ki, Türkiyənin çox tanınan fikir adamalarından biri, AKP-yə yaxınlığı ilə seçilən Fateh Altaylı "Habertürk" qəzetinin baş yazarıdır. Beləliklə, son vaxtlarda qardaş ölkədə Azərbaycana dil uzadanların və onun Türkiyə ilə arasını vurmaq istəyənlərin sayı artmaqdadır. Hələlik bunun əsl səbəbi bilinmir.

**musavat.com**



# Məsud Bərzani: Suriyanın daxili işlərinə qarışmaq niyyətimiz yoxdur

Suriyalı kürdlərin Ərbildə üç gün davam edəcək konfransına Şimali İraqdakı Kürd administrasiyasının rəhbəri Məsud Bərzaninin və Baş nazir Berhan Salehinin iştirakı ilə başlayıb.Herbiand.az-ın "Anadolu" agentliyinə istinadla verdiyi xəbərə görə, M.Bərzani suriyalı kürdlərə səslənib: "Suriyada dəyişiklik etmək bizim işimiz deyil, bu, sizin vəzifənizdir. Bizim əsla Suriyanın daxili işlərinə qarışmaq niyyətimiz yoxdur. Siz nəyə qərar versəniz biz bunu dəstəkləyəcəyik. Sizdən tək istədiyimiz birlik və bərabərlik içində hərəkət etmənizdir. Haqlarınızı qarşıdurmadan uzaq şəkildə, dialoq yolu ilə əldə etməyə çalışın".

# Kürdüstan lideri Bərzani türk vali ilə görüşdü

Yüksekova Ticarət və Sənaye Odası Başçısı Sabih Kayhan, Hakkari valiliyində Kürdüstan lideri ilə görüşdüklərini açıqlayıb. Görüşdə türküyə tərəfdən 15 şəxsin iştirak etdiyi bildirilir. Heyətdə iştirak edənlərdən Yüksekova Ticarət və Sənaye odası Başçısı Sabih Kayhan Şəmdinli Derecik və Çuxur tərəfindən Üzümlü sərhəd qapılarının açılmasını sürətləndirmək məqsədiylə etdikləri İraq ziyarəti ilə əlaqədar yerli mətbuata məlumat verib. Hakkari valisi Muammer Türker başçılığında Hakkari və Yüksekova Ticarət Odaları İdarə heyəti və Məclis Başçıları ilə birlikdə getdikləri İraqın Kürdüstan Bölgəsində ilk olaraq Regional Rəhbərlik Başçısı Məsud Bərzani ilə görüşdüklərini ifadə edən Kayhan görüşmələrin çox müsbət keçdiyini söyləyib.

# Öcalan Qardaşıyla Görüşdürülmədi

PKK Lideri Abdullah Öcalanın qardaşı Məmməd Öcalan ilə İmralıda həbsdə saxlanılan Cumalı Karsu və Şeyhmus Poyrazın qardaşları görüşə bilmədilər. İmralıhəbsxanasından qayıtdıqda sonra mətbuata açıqlama verən Mehmet Öcalan bildirib ki, həbsxana rəhbərliyi aşağıdakı məzmunda bir yazı biz verdi: "Bura çox həssasdır. Görüşə çıxmamız uyğun deyil.' Bizim orada olan bitənlərdən xəbərimiz yoxdur... " Jurnalistlərin israrlı sualları cavab olaraq Memmet Öcalan, böyük qardaşının həbsxana rəisinə söylədiyi , "Hazır kı dönəm çox həssas bir müddətdir. Görüşə bu mərhələdə çıxmamız uyğun deyil. Hər şey bir-birinə qarışmışdır. Görüşə çıxmayacağıq" sözlərini təkrarladı. Öcalan, "Müdirin bizə söylədikləri bu qədər. Biz başqa bir şey bilməyirik. Orada olub bitənlərdən heç xəbərimiz yoxdur". Memmet Öcalan, "Bu məsələni necə qiymətləndirirsiniz" sualına isə, "Məsələni tam olaraq bilməyirəm. 35-40 nəfər vəkili vardı. Onlar da həbs olunmuşdu. Yəni vəkilləri qəbul etmirlər. Zənn edərirdik ailələri ilə görüşdürülər. Müddəti tam bilməyirəm, amma müddət bir az qarışıq. Biz üç dörd həftə əvvəl müraciətimizi etmişdik. Görüş üçün bu Cümə axşamı üçün bizə xəbər gəldi. Biz gəldik görüş ba. tutmadı"

***(DİHA)***

# Demirtaş:Kürdistanın Azadlığını da Müdafiə edəcəyik

BDP Başçısı Səlahəddin Demirtaş, Kürdüstanın adıyla, cisimiylə azadlığını müdafiə edəcəyik dedi. BDP Başçısı Səlahəddin Demirtaş, "Ana dildə təhsil istəyirik, qazanacağıq. Geri addım atmayacağıq. Türkiyə cümhuriyyəti torpaqlarının bir parçası olan Kürdüstanın adıyla, cisimiylə azadlığını da müdafiə edəcəyik" dedi. Demirtaş, partiyasının Məclis qrup yığıncağında etdiyi çıxış öncəsi KKTC Qurucusu Rauf Denktaşa Allahdan rəhmət diləyib. Səlahəddin Demirtaş, bu gün BDP yə qarşı "siyasi soyqırım əməliyyatlarıyla" oyandıqlarını iddia edərək, "Bu əməliyyatlar başından bəri məhkəmələrdə deyil, Nazirlər kabinetində planlanıb həyata keçirilir. 'Bunlar mühakimənin işidir' kimi boş sözlərə bizi əsla inandıra bilməzlər" deyə danışdı. Toxunulmazlığı olan millət vəkillərinin evinin basıldığını, ardından "biz o evin millət vəkilinə aid olduğunu bilmirdik" deyərək "işin içindən çıxmağa çalışıldığını" irəli sürən Demirtaş, "Biz mesajı aldıq amma bu mesaja boyun əymirik" dedi. Demirtaş, bunları söylədi: "Rəhmətlik Orxan Doğanın evini basdınız, budmı səhv oldu? Nəyi axtarırsınız? Mesaj dəqiq ölmüş olsanız, köhnə vəkil də olsanız, qadın da, uşaq da olsanız biz faşizmin qarşısından geri durmayacağıq. O ev, Leyla Zananın Ankarada oturduğu evdir. Zananın Ankarada evi yoxmuş, bu səbəbdən bilmirləmiş... Ortada səhv yoxdur.

# SÜNNİLƏR İRAQ PARLAMENTİNİN İŞİNİ BOYKOT ETMƏYƏCƏKLƏR

"Əl-İraqiyə" blokunun nümayəndələri bu qərarı ölkədəki siyasi böhranı yoluna qoymaq üçün sünni, şiə və kürd partiyaları arasında keçirilən danışıqlarla əlaqədar verdiklərini bildiriblər. Faktxeber.com-un verdiyi məlumata görə, İraqda sünni müxalifət bloku «Əl-İraqiyə» ölkə parlamentinin işi ilə əlaqədar etdiyi boykotu dayandırmaq qərarını alıb. Blokun nümayəndələri bu qərarı ölkədəki siyasi böhranı yoluna qoymaq üçün sünni, şiə və kürd partiyaları arasında keçirilən danışıqlarla əlaqədar verdiklərini bildiriblər.

# Polisin müdhiş müvəffəqiyyəti

DEHAP də başçı olmuş Tuncer Bakırhana polis yalnız "sizə bir mail gəlmiş, maili açmısınız və Öcalanın vəkilləriylə etdiyi görüşməni oxumusunuz. Görüşmə qeydləri oxumanızın səbəbi nədir?" sualını vermiş. Fatma Kurtulandan da eyni sual soruşulmuş. Polisin müdhiş müvəffəqiyyəti. Polisin, prokurorun ortaya çıxardığı dərin quruluş. Mən bu ölkədə prokuror olsam "İmralı görüşmə qeydlərini oxudunmu oxumadınmı?" deyə soruşaram. 'Oxumadım' deyərsə həbs edərəm 'bu saxta siyasətçi' dir deyə. Bunu oxumayan Türkiyədə siyasətlə məşğul ola bilməz. Baş nazir, nazirlər, millət vəkilləri, MİT, təhlükəsizlik, hər kəs oxuyur. Bizdən əvvəl oxuyurlar. Ədalət Nazirinin önünə gedir eyni saatda. Onları oxumadan əsla amma əsla Kürd problemiylə əlaqədar strategiya təyin etmirlər. BDP li niyə oxumayacaqmış?"

# Hemik û Sînem



Qadir Qaçax

**Əvvəli ötən sayımızda**

Geraxay devera xowêrankir
Pezû rezê wêhemî talankir
Kiçûjinj'eşîraxoenfalkir
Eve wî xo ji rêberya wêbar kir
B'saxî yêmirîxoşermizar kir
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Çêbiye kurda her jibo parey
Serokeşîrek birayê Qusey
Got Sedamî tuzêrreçiyayê mey
Tu babê Kurday herme tu yê hey
Belkî babê wî bîtûyê'Ûdey
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Melayek l' Sedamîbî beramber
Gotêgerçêb'babo dînîserwer
L'dwîfMihemedîtu bîpêxember
WîgoteMelayê pareperwer
Estexfîrella Elahûekber
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

SeyidEbdulayêdîndareşîrvan
Mar Şem'ûn Feleûtujî Busirman
Bo pênc sed zêrrêt Turkêt bê wijdan
ŞêxEbdilselamtedaye destwan
L'dîrokê gorrateyezibildan
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

L'warê minserborekanemire
Enfal l'ser gunda yanevebirre
Seyekdirrewîşeferêxogirre
Efserli serokcehşîdixurre
Her evseyej' tebişereftire
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Sed sala li pêş FîxteyîXanî
J'ber hestaolîûya eşîrkanî
Milletê meMemûZînnezanî
Netewayetî me da b' erzanî
Lewaarmanca me d'bitqurbanî
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Yê berwîkperêsherdemyêserşor
Azadîxwaz jîb'rûyeksipî ûsor
Herçende l'ser me borîn çend serbor
Lêxofirotin bo me biyekeltor
Deh jisedê P.M,notjîpatexor
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Pêtivye evêtubaşbizanî
Takuhestaeşîrî ûxêzanî
Ya oldariya tengb'korkoranî
Pîroztirbitji ya nîştimanî
Her dê me bi rêve bin biyanî
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Ger min got Kurdim hîngê vêt nebim
Dagîrkera d'vêt husa ez hebim
B' ebdîniyaEreba bêjim ne'im
B' xulametyaTurka vêtbiêvd bim
B' nokeriyaFursa vêtbêjimçeşim
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Demîntirnêt ûcîhangîriyê
Piştî çendpendêt tepeseriyê
Kuştin û zîndan ûderbederiyê
Hêş hestaol ûeşîretiyê
Bilindtir jiyanetewayetiyê
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Ka sehkenevê şêtîûhariyê
B' fîta dujminêt kurdewariyê
Me êkudû kuşt b' eşîretiyê
Ferman bo ser êk bi dîndariyê
Da j'bîr kîn hizra wulatparêziyê
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

L' keltorê wulatparêzyêxela
Çinku kembaxtir peyda b'ye bela
J'borêveberêt semyanêtkela
Axaû qeşeûkuçek ûmela
Girtîne şwîna ÎsayêDela
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Yê j' hemyapitir evroroşinbîr
J' layê jîgencûb' mejîveyêpîr
B' xandinê yê gir b' wulatvanyê hwîr
Yaxelîfey û axaygotîl'dwîr
B'tinêherewebowîhizirûbîr
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

J'bo jeng û jehra j'ber dujmina may
Bizavek rewşenbîrî yapêviyay
B'hoşmenda maf û armanca înay
Hoşmendkuştî ye xandeva hêlay
Roşinbîrbaşqeye jixandevay
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Rêber bizavahizrî l' ÇînêMaw
Birryar da divêt azad bibin law
Peristgeh û koçk kospêt serşêwaw
Bêne textkirin lê b'kireşeraw
Bila j'nav biçin hizar Lîmpiyaw
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Kurdî d'gel Kurdîhêşhenesinor
PeyvaEflatonçirayekê sor
Gelê perwerdêşopadiktator
Çêd'kit xwîndkarê b'direwê pispor
Rexnegirê gêj û milletêkor
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Demê înternêt û cîhangerî
Em razînînîn herb'suyaryakerî
Bimînîte d'ber mecilkêkoderî
Xarna me nîsk û nok û maş b' terî
Lê hizr û reftar herd'kevin d' serî
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Şoreşa Ferensa durîşmbi tevî
Birayînîû azadî û wekhevî
B' kiryarêberuvajiyadevî
Yêdamezrêner pitir jê revî
Bes bozengînyê hebî berhevî
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Mar Şem'ûn te kar wesa b'rêve bir
Serê xoû eşîra xo bilindkir
BeramberTurkêtejdehaûkafir
Şêx Ebdilselam te ji wan rizgar kir
Bo heta hetatu maye nemir
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Aferîn HemêMwîsêsedcara
Te term êxistin ji Turka b'hizara
Cihê şanaziyazengînûjara
Teboeşîryêser dal'sêdara
Bo parastinanamwîsûwara
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Mîrê serkeftîyêxudanşiyan
Zana l'dorêt wîne kesêt nezan
Rojborojpitirwulatavedan
Belê bedbextî û ya millet wêran
Mîrê wulatîbibtebazirgan
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Desthelata mayj'î babûbapîr
Ne êtguhorîn destqeydûzincîr
Milletek yêbendewar û êxsîr
Nêzîkdê kevte nav deryayek kwîr
Ya têda tijîhwîtêt hefik stwîr
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Mejyê kurdîçespekduqulî ye
Layek eşîrî ûêk oldarî ye
Serkêşaxayeûpêşyêolî ye
Ji netewayetyêyê dwîr ketî ye
B' berjewendiyadagîrkerîye
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Milletê bê lawsala bêbihar
Bes b' efrandinê mirovdibitnavdar
Yannivîsînate bibit kiriyar
Yan l'ser karê te b'nivêsinxwîndkar
Yan diyar nabîdêçîbê hijmar
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Hizra xo bikel'vêhêbetiyê
Olbikar înan l' berjewendiyê
Deqêt l'nav kitêbêt oldariyê
Bikar înayne l'dwîv daxwaziyê
Mi'awiyey eynî birçarşembiyê
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Hunerb' hinêrêtêt b'rêvebirin
Yab'tevebêt b'min ne êt kirin
Mixabinevrotêt seqet kirin
Dagîrkeraberhemêt baş birin
Genc dwîr efrandin bes çav l'wan kirin
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Gerhêzagenca jibopîraba
Serbora pîrajibo gencaba
Nukejimêjedujminradaba
Tuxîbê destkirdhemîtêkdaba
Milletxudandewlet ûalaba
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Makengî eve dirustahî ye
Kêşanû pîvan bivîrengî ye
Başya te bo min ku taybetî ye
Dijîberjewendiya giştî ye
Bêjim her eve başe û başî ye
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Her hîngê min d'vêtyasaûsizadan
Qet bo min nebit bo te û bo wî û wan
Nexasmeyêd'gelminhey berîkan
Ya ez hez d'kimû d'zanim bê guman
Min d'vêther ew bindestûr ûnîşan
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Xozyawêrojazwîtir bêt hatin
Mirov b'mirovîne êtbirandin
Tev dagîrkerî bête qelandin
Kurd b'destê kurdî ne êt telaftin
Kuştin b'mêranî ne êthijmartin
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Her bawerya d'nav da kutlebazî
Yê tu d'gel da ne j'te ne yêrazî
Şerê navxo dê bite daxazî
Deselat berefkizîû lawazî
J'ber mayê wê peşêmanî û tazî
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Mercêserkeftnê d' êkgirtnêdaye
Hêvênêwêjîd'rêkxistnêdaye
Kutlekutlanê d'navdabelaye
Program û peyrewyê aşkeraye
Lê ya ez hez d'kim ew ya rewaye
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Heyf evrokejî j'negehiştinê
Ji encamê mejî dagîrkirinê
Derçûwêt kulya û bilind xandinê
Her b' eşîretyêbênxapandinê
Licehşatiyêbênekuştinê
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Xozîçarêkawê evîniyê
Ya dimezêxîn booldariyê
Yan xizmayetî ûeşîretiyê
Me b'kar înaba bokurdîniyê
Da ji mêje gehîn serbixoyiyê
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

Bila çarêka wê qurbaniyê
Yan jî nevyan û jêk dwîratiyê
B'navê eşîretî û oldari'yê
Tîr ba bosingê dagîrkeriyê
Nêzîkda gehîne rizgariyê
Biyeawaza devûbilwîlê
Hemik hey lolo û Hemik hey lê lê

**Ardı var**

www.netewe.com

# "SARI GƏLİN" KİMİNDİR, CƏNAB ƏRDOĞAN?

*Ermənilər sizi niyə bu qədər çaşdırıb, çaşmısınız, sayın baş bakan!*



Azərbaycanın müstəqillik qazandığı ilk illərdən başlayaraq mənfur rus ordusunun 20 yanvar 1990 – cı ildə Bakıya hərbi müdaxiləsi nəticəsində şəhid olmuş qəhrəmanların xatirəsini xüsusi ehtiramla qeyd etməsi artıq ənənəyə çevrilib. Bu dəfə də 20 yanvar həmişəki kimi, böyük xalq hüzn günü kimi bütün ölkədə qeyd olundu. Bundan əlavə dünyanın bir sıra ölkələrində də bu hadisənin anım mərasimləri keçirildi. Qardaş Türkiyədə də 20 yanvar hüzn günü bir sıra telekanallarda gün boyunca qeyd olundu. Bakıda törədilmiş o zamnkı rus vəşiliyinə türk siyasətçilər yenidən nəzər saldılar və azəri türlərinin azadlığını boğmağa çalışmış rus hərb maşınının ədalətsiz generallarının böyük cinayətə imza atdıqlarını və nəticədə cəzasız qaldıqlarını bütün dünyaya duyurdular. Bunlar hamısı çox yaxşı haldır və Türkiyə ilə Azətbaycan qardaşlığının təntənəsinin təzahürüdür, amma.

Bəli, bütün bunlarla yanaşı, həmin gün bütün türk dünyasını silkələyən çox xoşagəlməz bir hadisənin qeyd alınması Türküyə - Azərbaycan qardaşlığı ilə fəxr edən hər kəsi həqiqətən sarsıtdı. Belə həssaslıq tələb edən tarixi gündə Türkiyənin bir çox sanballı qəzetlərinin manşetlərində "həpimiz erməniyiz" yazılarını görmək hər bir azəri türkü üçün böyük ağrı və üzüntü yaratdı. Bu azmış kimi, ardınca Türkiyənin baş naziri sayın R. T. Ərdoğanın Qrant Dinkin öldürülməsi ilə bağlı cinayət işinin mühakiməsi nəticəsində çıxarılmış məhkəmə hökmünün ölkədə doğurduğu etiraz dalğasını önləmək məqsədi ilə söylədiyi: "Türkiyə artıq əvvəlki Türkiyə deyil. Heç kimin törətdikləri günahsız qalmayacaq. Heç bir heç bir suiqəsd, heç bir təxribat gizli qala bilməz. 6 fərqli dildə, eyni melodiya ilə, eyni hislərlə söylənilən "Sarı Gəlin" mahnısını, Şişlidə atılan bir güllə susdura bilməz",- ifadəsini işlətməsi hər kəsi şaşırdı və "bir millət iki dövlət" kəlamının kürəyinə arxasından saplanan qardaş xəncəri effektini verdi! Əgər sayın baş nazirin Azərbaycanla – Ermənistan arasında gedən "Sarı gəlin" davasından xəbərsizdirsə, bu çox pis haldır. Əgər cənab baş nazir bu davadan xəbərdar ola – ola bu ifadəni işlədirsə, bu ondan da pisdir!

Bu cür uğursuz fikirləri səsləndirən ölkə rəhbərinin səhv ifadəsi indi hər kəsi şaşırıb! Bəs, türk dünyasının liderliyini üzərinə götürmüş R. T. Ərdoğan kimi şəxsiyyətə belə bir səhv fikir söyləmək heç yaraşırmı? Qətiyyən! Biz yaxşı başa düşürük ki, Türkiyənin üzərinə hər tərəfdən böyük basqılar edilir, bu dövlətə qarşı erməni və kürd kartlarından, soyqırım kimi qondarma ittihamlardan istifadə edərək, onu zəif salmağa ciddi cəhd edənlər geri çəkilmək fikrində deyillər. Başa düşürük ki, Türkiyə rəhbərliyi ölkəni bu cür düşmən basqılarından mütləq qorumalıdırlar və bizlər də azəri türkləri olaraq, bu mübarizədə qardaş Türkiyənin daim yanındayıq! Amma kimilərin nə cür basqı etməsindən asılı olmayaraq, Türkiyə kimi nəhəng ölkənin baş nazirinin ta bu boyda da səhv fikirlərin, yanlış ifadələrin altından imza atmasına da haqq qazandırmaq mümkün deyil, axı! Heç zaman ağılıma da gətirə bilməzdim ki, R. T. Ərdoğan kimi yetkin ölkə başçısı " Sarı Gəlin"in Azərbaycan xalq mahnısı olmasına şübhəsi var? Amma 20 yanvarda onun dilindən səslənən uğursuz ifadə bir daha təsdiq etdi ki, biz bir çox şeylərdə olduğu kimi, bu məsələdə də yanılmışıq!

Yuxarıdakı qeydlərim oxucularda belə yanlış təsəvvür yaratmasın ki, baş vermiş səhvin bütün günahlarını təkcə Türkiyənin baş naziri cənab R. Ərdoğada görürəm. Bu səhvin baş verməsinin əsil günahını "sarı gəlin"in bizim xalq mahnımız olmasını hələ də dünyaya və eləcə də qardaş Türkiyəyə sübut etməyən Azərbaycan hakimiyyətində, xüsusən, bu işə birbaşa məsul olan Azərbaycan Mədəniyyət Nazirliyinin rəhbərliyində və bu işə cavabdeh olan digər dövlət məsullarının fəaliyyətsizliyində görürəm. Əgər müvafiq hakimiyyət orqanları öz vəzifə borclarını vaxtında yerinə yetirib, " Sarı Gəlin" Azərbaycan xalq mahnısının ifası üzrə beynəlxalq müsiqi müsabiqəsi keçirsəydi, bu müsabiqəyə dünyanın iddialı ölkələrindən müsiqiçilər cəlb edib, yekun nəticə əldə etsəydi, indi bu məsələdə nəyinki, yad ölkələrin dövlət başçıları və vətəndaşları, heç cənab R. T. Ərdoğan da çaş – baş fikirlər söyləməyə cəsarət etməzdi! Bir şeyi yaddan çıxarırıq ki, öz davamızı biz özümüz aparmalıyıq ki, özünü bizə qardaş, sirdaş, daha nə bilim nə sayanlar da bizim davamızın mahiyyətinin nədən ibarət olduğunu ən azı, heç olmasa duya bilsinlər!

Son olaraq xalqımıza və ölkəmizə qarşı etdiyi hörmətsizliyə görə, Azərbaycanın xalq mahnısı " Sarı Gəlin"in azı altı dildə oxunduğunu və beləliklə də həmin mahnının ermənilərə aid olmasına işarə vuran Türkiyənin baş naziri hörmətli cənab R. Ərdoğana yazıqlar olsun, deyirəm! Bu hadisə mənə 1920 – ci ildə Azərbaycanın müstəqilliyini özlərini qorumaq xatirinə qurban verən Türkiyə rəhbərliyinin xəyanətini xatırlatdı! Keçmiş olsun, Allah hamımıza səbr və kəramət hissi bəxş etsin ki, düşmən qarşısında çaşıb sayaqlamayaq!

***paralel.az***

# İnadkarlar inaddan əl çəkdi

İraqiyyə alyansı parlamentin boykotuna son qoyub.

İraqda sünnilərin böyük hissəsinin dəstəklədiyi siyasi alyansın parlamentin bir ay sürən boykotu dayandırıb. Bununla milli birlik hökumətində təriqət zəminində dərin fikir ayrılıqlarına yol açmış siyasi böhrana son qoyulub.

Milli.Az "Amerikanın səsi"nə istinadən bildirir ki, "İraqiyyə" alyansının sözçüsü Meysun əl Damluci deyib ki, ölkədə böhranın həlli məqsədilə milli konfransda atmosferin yaxşılaşdırılması üçün qanunvericilər ilk dəfə olaraq bu həftə parlamentin sessiyalarında iştirak etməyə başlayacaq. "İraqiyyə" bunu yüksək səviyyəli liderlərin partlamentin spikeri Üsəma əl Nucaifi, maliyyə naziri Rafi Əl-Əssavi və Baş nazirin müavini Saleh əl Mutlakla görüşdən sonra elan edib. Alyans şiə baş nazir Nuri əl Məlikinin başçılıq etdiyi nazirlər kabinetinin boykotuna son qoyub-qoymamaq haqda hələ qərar verməyib.

Siyasi böhran keçən ay baş nazir ölüm eskadronu yaratmaq ittihamı ilə İraqın sünni vitse-prezidentini haqda order verməsi və parlamentdən cınab Məlkini diktator adlandıran baş nazirin sünni müavininin işdən azad edilməsini istəməsindən sonra yaranmışdı.

Vitse-prezident Tariq əl Həşimi və Baş nazirin müavini Saleh Əl-Mutlak hər ikisi İraqiyyənin üzvləridir. Həşimi yanlışlığa yol verilmədiyini demiş və həbsə yol vermək üçün İraqın muxtar kürd regionuna qaçmışdı.




"İraqiyyə" Məlikinin addımlarına parlamenti və kabineti boykot etməklə cavab vermiş və onu İraqda şiələrin əsas siyasi bloku olan Milli Alyansda hakimiyyətin mərkəzləşməsinə çalışmaq ittiham etmişdi.

"İraqiyyə" 2010-cu ildə parlament seçkilərində sünnilərin güclü dəstəyi nəticəsində yerlərin çoxunu əldə etmiş, lakin əksəriyyətin koalisiyasını yarada bilmədiyi çün Baş nazir Nuri əl Məlikinin Milli Alyansı ilə birlik hökumətinə qoşulmağa razı olmuşdu.

## Hollywood ulduzları türk filmində

